Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının inkişafının məntiqi nəticəsidir.

Naxçıvan Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən biridir.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

# HEYDƏR ƏLİYEV
# VƏ
# NAXÇIVAN
# DÖVLƏT UNİVERSİTETİ

İSA HƏBİBBƏYLİ

N A X Ç I V A N
NDU, "Qeyrət" nəşriyyatı, 2002

**İsa Həbibbəyli: Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti**

NDU, "Qeyrət" nəşriyyatı,
Bakı, 2002, 80 səh. şəkilli

**Redaktoru: Vaqif Məmmədov**

*Kitabda dünya şöhrətli görkəmli dövlət xadimi və uzaqgörən, müdrik siyasi xadim, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Naxçıvan Dövlət Universiteti ilə əlaqələrindən və bu ali təhsil ocağının inkişafına göstərdiyi böyük qayğıdan bəhs edilir.*

$H\frac{342002}{34\text{-}26}$ 65-02

© HƏBİBBƏYLİ İ.Ə.

# Azərbaycanda ali təhsilin inkişafında Heydər Əliyev epoxası

*Maarifçilik Azərbaycanın mütəfəkkir adamlarının əsas vəzifəsi olmuş və xalqımızın görkəmli simaları bu sahədə tarix boyu böyük xidmətlər göstərmişlər.*

***Heydər Əliyev***




Naxçıvan şəhəri. 10 oktyabr, 1999-cu il

Azərbaycan Respublikasında milli ziyalılığın, orta və ali təhsilin son 30 ildən artıq bir dövrdəki bütün inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin adı və yorulmaz fəaliyyəti ilə bağlıdır. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə elm və təhsil məsələləri, dövlətin və cəmiyyət həyatının ön mövqeyinə çəkilmişdir. Müdrik və uzaqgörən siyasətçi Heydər Əliyev Azərbaycanı bütün yönləri ilə inkişaf etdirmək işində dərin bilikli, yüksək ixtisaslı, vətənpərvər mütəxəssislərin hazırlanmasını zəruri şərtlərdən biri saymışdır. Bu məqsədlə ilk növbədə respublikamızda mövcud olan ali məktəblərin maddi-texniki və tədris bazası daha da möhkəmləndirilmişdir. Bundan başqa, məhz dövlət rəhbəri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda bir sıra yeni ali məktəblər yaradılmışdır. Azərbaycan Dillər Universiteti, Slavyan universiteti, Texnologiya Universiteti, Memarlıq və İnşaat Universiteti, Milli Konservatoriya, Rəssamlıq Akademiyası, Müəllimlər İnstitutu, Hərbi Akademiya, Milli Aviasiya Akademiyası və s. kimi ali təhsil müəssisələri Heydər Əliyevin qayğısı, sərəncamı, fərmanı ilə həyata vəsiqə almışdır. Beləliklə, ali məktəblərimiz həm Azərbaycanın milli və dövlətçilik maraqlarına, ehtiyaclarına uyğun yüksək ixtisaslı mütəxəssislər hazırlayan münbit və möhkəm bazaya, həm də ziyalı potensialımızı qoruyub saxlayan, daha da inkişaf etdirən mühüm mərkəzlərə çevrilmişdir. Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində ziyalılaşma prosesi dərinləşmiş, böyük tərəqqi və dirçəliş üçün zəruri zəmin formalaşdırılmışdır.

Keçmiş Sovetlər Birliyinin ən qabaqcıl ali məktəblərində azərbaycanlı gənclərin geniş miqyasda təhsil almalarına nail olmaq da Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevin dövlətimiz və millətimiz qarşısındakı böyük xidmətlərindəndir. Müstəqillik şəraitində yeni nəsil Azərbaycan gəncliyinin nümayəndələrinin Amerikada, Avropa və Asiya ölkələrində, Rusiyada ali təhsil almaq imkanı qazanmaları da həmin prosesin davamı olub, respublikamızın tərəqqisi və dirçəlişi proqramının həyata keçirilməsinə uğurla xidmət edir.

Ayrı-ayrı regionlarda - Sumqayıtda, Naxçıvanda, Gəncədə, Lənkəranda ali məktəblərin yaradılması, möhkəmləndirilməsi və genişləndirilməsi də Heydər Əliyevin təkcə paytaxtın deyil, Azərbaycanın hər tərəfinin inkişafına nail olmaq planının üzvi tərkib hissəsi kimi özünü doğrultmuşdur. Nəticədə ötən 30 ildən artıq bir dövrdə respublikamızın regionlarının yüksək ixtisaslı mütəxəssislərə olan ehtiyaclarının ödənilməsi baxımından mühüm irəliləyiş əldə edilmişdir. Bundan başqa, Azərbaycan başdan-başa ziyalılar ölkəsi səviyyəsinə çatdırılmışdır.

Geniş mənada Azərbaycan ziyalısına, o cümlədən elm və təhsil işçilərinə, alimlərə və müəllimlərə dövlət səviyyəsində həmişə artan istiqamətdə qayğı göstərilməsi Heydər Əliyevin hakimiyyəti dövrlərində daha

qabarıq şəkildə nəzərə çarpmışdır. Ali məktəb müəllimlərinin maddi və mənəvi cəhətdən həvəsləndirilməsi, onların iş və yaşayış şəraitlərinin yaxşılaşdırılması respublikamızda görkəmli alimlərin yetişib formalaşdırılmasına, bacarıqlı, qabaqcıl müəllimlərin meydana çıxmasına şərait yaratmışdır. Ən yüksək fəxri adlara layiq görülənlər sırasında alimlərin və müəllimlərin üstünlük qazanması da möhtərəm prezidentimizin ziyalı əməyinə bəslədiyi yüksək ehtiramın əməli ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti, zati - aliləri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda ali təhsil sahəsində islahatlar uğurla həyata keçirilir. Son illərdə universitetlərimizin Avropa ali təhsil sisteminə yaxınlaşması, elm və təhsil sahələrində məqsədyönlü və səmərəli inteqrasiyanın təmin olunması, təhsilin bütün pillələrinə dövlət qayğısının artırılması, ali məktəblərdə genişmiqyaslı quruculuq prosesinin getməsi də görkəmli dövlət xadimi Heydər Əliyevin gərgin və yorulmaz fəaliyyətinin nəticəsidir.

Azərbaycanda Heydər Əliyev epoxası, həm də milli təhsilin, ali məktəblərin sürətli inkişafı ilə səciyyələnir. Heydər Əliyev Azərbaycan universitetlərinin quruculuq epoxasının da qüdrətli yaradıcısıdır.

Respublikamızın digər ali məktəblərinin kollektivləri kimi, Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti və çoxminli tələbə kollektivi də hazırkı böyük tərəqqi və dirçəliş üçün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə minnətdardır.



Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvan Dövlət Universitetində (11.10.1999)

# Heydər Əliyev
# və
# Naxçıvan
# Dövlət Universiteti

*Bu ali məktəbin yaranması və fəaliyyəti Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında, mədəniyyətində, sosial həyatında, onun inkişaf etməsində böyük rol oynamış və Azərbaycan Respublikasının yüksək təhsilli kadrlarla təmin olunmasına öz töhfəsini vermişdir.*

***Heydər Əliyev***

Azərbaycan ali məktəblər ailəsində özünəməxsus yeri və mövqeyi olan Naxçıvan Dövlət Universitetinin formalaşma və inkişafında görkəmli dövlət xadimi Heydər Əliyevin böyük və əvəzsiz xidmətləri vardır. Bu ali təhsil ocağı özünün müxtəlif mərhələlərdəki bütün inkişaf və tərəqqisi üçün məhz Heydər Əliyevə borclu və minnətdardır.

Hazırkı Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamışdır. Az sonra Azərbaycan Respublikasının rəhbəri, möhtərəm Heydər Əliyevin 12 iyun 1972-ci il tarixli fərmanı ilə həmin filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılmışdır. Müstəqil ali məktəbin yaradılması regionun elmi-mədəni inkişafına, burada ziyalı potensialının artmasına, maarifçilik hərəkatına müsbət təsir göstərmişdir. Pedaqoji İnstitut sonralar 29 dekabr 1990-cı ildə Naxçıvan Dövlət Universitetinin təşkili üçün böyük baza funksiyasını yerinə yetirmişdir.

Heydər Əliyev ilk dəfə hələ Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Naxçıvan Dövlət Universitetində olmuşdur. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 50 illiyi ilə əlaqədar olaraq bu qədim diyara gələn dövlət başçısı 4 oktyabr 1974-cü ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun müəllimləri və tələbə heyəti ilə görüşmüşdür. Dövlət əhəmiyyətli bu görüş universitetin tarixi salnaməsində çox mühüm yer tutur. Məhz həmin görüşdən sonra respublikamızın rəhbər orqanlarının, muxtar respublika rəhbərliyinin diqqəti gənc Naxçıvan Dövlət Pedaqoji İnstitutuna daha geniş miqyasda yönəldilmişdir. Artan qayğı və diqqət Pedaqoji İnstitutun maddi-texniki bazasının möhkəmləndirilməsi, burada yeni ixtisasların açılması ilə nəticələnmişdir. Hətta Naxçıvanda mövcud Pedaqoji İnstitutun bazasında müstəqil dövlət universitetinin yaranması zərurəti haqqında ilk fikirlər də həmin tarixi görüşdə Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Regionda universitet yaratmaq ideyasını Heydər Əliyev Naxçıvanın Muxtar Respublika statusu daşıması, diyarın özünəməxsus coğrafi mövqeyi, strateji əhəmiyyəti kimi inkarolunmaz amillərlə əsaslandırmışdır.

Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda universitet yaratmaq ideyasının müəllifidir.

Heydər Əliyevin Naxçıvan Dövlət Universiteti ilə münasibətlərində XX əsrin doxsanıncı illərinin əvvəllərindəki əlaqələr xüsusi yer tutur. Bu illərdə (1990-1993-cü illərdə) Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətinin nümayəndələri taleyin hökmü ilə Moskvadan Naxçıvana gəlmiş Heydər Əliyevin ətrafında olmuş, onun muxtar respublikada apardığı çox cəhətli işlərə dəstək vermişlər. Çətin blokada şəraitinin və o zamankı Azərbaycan iqtidarının yaratdığı mürəkkəb vəziyyətə baxmayaraq, Heydər Əliyev universitetin problemlərinin həllinə, universitet müəllimləri ilə əlaqələrə xüsusi diqqət yetirmişdir. Naxçıvan Muxtar Respub-

likası Ali Məclisinin Sədri kimi o, bu çətin illərdə süni vasitələrlə gözdən salınmış alimləri və müəllimləri onları əhatə edən siyasi və mənəvi böhrandan çıxarmağa nail olmuşdur. Az qala unudulmuş, bir çox hallarda isə düşünülmüş şəkildə əsas hadisələrdən uzaqlaşdırılmış yerli ziyalılar məhz Heydər Əliyevin apardığı məqsədyönlü iş sayəsində Naxçıvanda qısa müddətdə ön mövqeyə çəkilmişdir. Alimlərin və müəllimlərin səsi tədricən mühitin ən qaynar nöqtələrindən eşidilməyə başlamış, ziyalılıq dirçəldilmişdir.

Naxçıvan Dövlət Universitetində "Bazar iqtisadiyyatına keçid şəraitində sərhədyanı ticarətin və iqtisadi əlaqələrin təşkili" mövzusunda 12 oktyabr 1992-ci il tarixdə keçirilmiş beynəlxalq simpozumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin iştirakı və çıxış etməsi mühüm hadisəyə çevrilmişdir. Əvvələ, bu fakt uzaqgörən böyük siyasətçi Heydər Əliyevin Naxçıvan Dövlət Universitetini bir daha ictimaiyyətin diqqət mərkəzinə çəkməsinə şərait yaratmışdır. İkincisi, Heydər Əliyevin simpoziumda iştirakı qonşu ölkələrdən - Türkiyə Cümhuriyyətindən və İran İslam Respublikasından dəvət olunmuş alimlərin də iştirak etdiyi beynəlxalq elmi tədbirin daha yüksək səviyyədə keçirilməsini təmin etmişdir. Nəhayət, Heydər Əliyevin simpoziumdakı dərinməzmunlu nitqi həmin elmi forumun qarşıya qoyduğu məqsədlərini həyata keçirməsi baxımından da mühüm əhəmiyyətə malik olmuşdur. Belə ki, möhtərəm Heydər Əliyevin beynəlxalq simpoziumdakı nitqində irəli sürülən dəyərli mülahizələr ölkədə bazar iqtisadiyyatının, sərhədyanı ticarətin mahiyyəti, təşkili və gedişatı, məqsəd və vəzifələri haqqında ilk əsaslı, proqram xarakterli fikirlər idi. Müstəqillik şəraitində bazar iqtisadiyyatına keçid və sərhədyanı ticarət kimi tamamilə yeni olan məsələlər haqqındakı həmin mülahizələr təkcə muxtar respublikada yox, bütövlükdə Azərbaycanda bu istiqamətdə düşünülmüş tədbirlərin müəyyən edilib həyata keçirilməsinə istiqamət vermişdir. Bundan başqa, Naxçıvanda keçirilən simpoziumda səslənən yeni, sərrast və uzaqgörən fikirlər müstəqilliyin başlanğıc mərhələsində ciddi suallar qarşısında qalmış iqtisad elmini də istiqamətləndirmiş və zənginləşdirmişdir. Həmin qiymətli tezislər hələlik dinləyici kimi simpoziumda təmsil olunan yeni gənc iqtisadçı nəslin yetişib formalaşmasına da müsbət təsir göstərmişdir.

Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində görkəmli dövlət xadimi Heydər Əliyevin təmsil olunması bu ali təhsil ocağının tarixi salnaməsinin ən parlaq səhifəsini təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev yubileyin keçirildiyi günü (12 noyabr 1992-ci il) bütünlüklə Naxçıvan Dövlət Universitetinə həsr etmişdir. O, universitetin ərazisini gəzmiş, kollektivin ayrı-ayrı üzvləri ilə söhbətlər aparmış, mövcud problemləri öyrənmiş, çıxış

yolları haqqında dəyərli tövsiyələr vermiş, universitetə əməli köməklik göstərmişdir.

Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyindəki dərinməzmunlu nitqi sözün geniş mənasında o vaxtkı çətin durumda respublikamızda ali təhsilə həsr olunmuş ciddi bir məramnamədir.Ali təhsilin keçmiş ideologiyadan ayrılması, millilik və bəşərilik istiqamətində idarə olunması, universitetlərin beynəlxalq əlaqələrinin genişlənməsinin zəruriliyi, bütövlükdə ali təhsilin yeni islahatlara möhtac olması ideyaları Heydər Əliyev tərəfindən qətiyyətlə və uzaqgörənliklə irəli sürülmüşdür.

Həmçinin möhtərəm Heydər Əliyev Naxçıvan Dövlət Universitetinin xidmətlərinə və fəaliyyətinə yüksək qiymət vermişdir. Bu tarixi nitq Naxçıvan Dövlət Universitetinin inkişafının uzunmüddətli proqramıdır. Ümumiyyətlə, həmin ideya və tövsiyələr yeni dövrdə Azərbaycan ali təhsilinin tərəqiisi üçün də mühüm əhəmiyyətə malikdir. Aradan 10 illik bir müddət keçməsinə baxmayaraq, Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyindəki tarixi nitqi bu gün üçün də, gələcək üçün də aktualdır. Bu mənada həmin dərinməzmunlu niqt milli ali təhsilin taleyində və tarixində mühüm rolu və ciddi təsiri olan qiymətli tarixi sənəddir.

Yubiley tədbirində yaxından iştirakı müdrik siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevlə Naxçıvan Dövlət Universitetinin kollektivi arasında daha bir doğmalıq və ünsiyyət körpüsünə çevrilmişdir.

Naxçıvan Dövlət Universitetinin 30 illik yubileyi (30 oktyabr 1997-ci il) Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin diqqətindən kənarda qalmamışdır. Möhtərəm prezidentimizin yubiley münasibətilə universitetin kollektivinə ünvanladığı təbrik məktubu qədim diyarın əsas elm, təhsil və mədəniyyət mərkəzi sayılan Naxçıvan Dövlət Universitetinə verilmiş yüksək qiymətin, göstərilən etimadın və bəslənilən böyük ümidlərin parlaq ifadəsidir. Azərbaycan dövlətinin fikrini ifadə edən təbriknamə universitetin sonrakı inkişaf yollarına da gur işıq salır.

Naxçıvan Dövlət Universitetinin yenidən qurulmasına və daha da inkişaf etdirilməsinə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Heydər Əliyev daim böyük qayğı göstərir. Qədim diyarın dövlət universiteti özünün yeni həyatı və indiki yüksək inkişaf səciyyəsi üçün ölkə rəhbərinə borcludur. Möhtərəm prezidentimizin müəyyən etdiyi proqrama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun məqsədyönlü rəhbərliyi ilə Naxçıvan Dövlət Universitetində aparılan genişmiqyaslı işlər regionda möhkəm maddi-texniki bazaya, güclü kadr potensialına malik olan inkişaf etmiş ali təhsil ocağının yaradılması ilə nəticələnmişdir. Bütün bunların sayəsində Naxçıvan Dövlət Universitetinin 7 fakültəsində ali təhsil alan 3600 nəfərdən çox tələbə, ma-

gistr və aspirant müstəqil Azərbaycanın dövlətçilik maraqlarının gerçəkləşdirilməsi istiqamətində köklənmiş layiqli nəsil kimi formalaşır. Məhz dövlətimizin başçısının böyük qayğısı sayəsində yüz hektar ərazini əhatə edən universitetin 14 tədris korpusu, kitabxanası, İdman bazası, konservatoriyası, tibb fakültəsi və xəstəxanası, kompüter sinifləri, internet mərkəzi, çoxsaylı fənn kabinetləri və laboratoriyaları, Botanika bağı regionda elm, təhsil və mədəniyyəti, habelə milli ictimai fikri inkişaf etdirməyə münbit şərait yaradır. Amerika, Avropa, Müstəqil Dövlətlər Birliyi ölkələrinin, Türkiyə və İranın universitetləri ilə yaradılmış əlaqədər Naxçıvanı və universitetlərimizi dünyada tanıtmağa və inkişaf etdirməyə müsbət təsir göstərir.

İnşası 1999-cu ildə başa çatdırılıb tələbələrin istifadəsinə verilmiş 1600 yerlik yeni tədris korpusu Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Azərbaycan ali təhsilinə, konkret olaraq Naxçıvan Dövlət Universitetinə böyük töhfəsidir. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi günlərində Naxçıvan Dövlət Universitetində 5 mərtəbəli, 1600 yerlik yeni tədris korpusunun açılışı mərasimində iştirak və çıxış edən ölkə prezidenti Heydər Əliyev çətin şəraitdə gerçəkləşdirilmiş bu hadisənin regionda ali təhsilin inkişafında yeni üfuqlər açacağına özünün böyük ümid və inamını ifadə etmişdir. Bu isə öz növbəsində universitet rəhbərliyinin məsuliyyətini, kollektivin isə işləmək səyini və həvəsini daha da artırır.

Naxçıvan Dövlət Universitetində çalışan alimlərin əməyi ölkə prezidenti tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının prezidenti, möhtərəm Heydər Əliyevin fərmanları ilə universitetin əməkdaşlarından 2 nəfərinə Əməkdar elm xadimi, 1 nəfərə Əməkdar müəllim, 1 nəfərə Əməkdar incəsənət xadimi fəxri adları verilmişdir.

Naxçıvan Dövlət Universitetinin nəzdində 1997-ci ildən ardıcıl olaraq fəaliyyət göstərən "Heydər Əliyev Universiteti" əsl milli dövlətçilik, yetkin siyasi düşüncə və idarəetmə mədəniyyəti məktəbi kimi yeni nəslin tərbiyəsində mühüm rol oynayır. "Heydər Əliyev Universiteti"nin indiyədək keçirilmiş 40 məşğələsi ölkə prezidentinin çətin və mənalı həyatının, keçdiyi şərəfli mübarizə yolunun, Azərbaycanın son 35 ilə yaxın bir dövrdəki inkişaf mərhələlərinin, hazırkı müstəqillik dövrünün dərindən öyrənilməsinə şərait yaradır.

Azərbaycan Respublikasının Prezidenti, möhtərəm Heydər Əliyev Naxçıvan Dövlət Universitetinin fəxri doktorudur. Elmi şura özünün 9 oktyabr 1999-cu il tarixli qərarı ilə ölkə prezidentinə fəxri doktorluq elmi dərəcəsi verməklə onun bütövlükdə milli ali təhsilin, o cümlədən Naxçıvan Dövlət Universitetinin inkişafındakı misilsiz xidmətləri qarşısında özünün mənəvi borcunu ifadə etmişdir.

XXI əsrdə Azərbaycan ali məktəbi yeni inkişaf mərhələsinə qədəm

qoymuşdur. Hazırkı yeni tarixi şəraitdə universitetimiz Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin rəhbərliyi ilə təhsil islahatlarını həyata keçirir, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması sahəsində ciddi uğurlar əldə edir. Alimlərimiz və müəllimlərimiz irəliyə doğru inkişafda həmişə möhtərəm prezidentimizin böyük diqqət və qayğısını hiss edirlər. Digər ali məktəblərimizin kollektivləri kimi, Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və çoxminli tələbələri də bu misilsiz qayğıya konkret əməli işlərlə, dərin məsuliyyət duyğusu ilə, ölkə prezidentinə, onun böyük ideallarına sədaqətlə cavab verməyi özlərinin əsas mənəvi borcu hesab edirlər.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvan Dövlət Universitetində "Bazar iqtisadiyyatına keçid şəraitində sərhədyanı ticarətin və iqtisadi əlaqələrin təşkili" mövzusunda keçirilmiş beynəlxalq simpoziumda çıxış edir (12.X.1992).

119041




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində (12.XI.1992).

# Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində işləyərkən Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində

## NİTQİ

Hörmətli, əziz professorlar, müəllimlər, tələbələr, hörmətli qonaqlar!

Bu gün Naxçıvan diyarının ilk yüksək təhsil ocağı, Naxçıvan Muxtar Respublikası Dövlət Universitetinin 25 illik yubileyi qeyd olunur. Bu yubiley munasibəti ilə, bir universitetin kollektivi üçün yox, bütün Naxçıvan əhalisi üçün, eyni zamanda bütün Azərbaycan üçün əlamətdar olan bu hadisə münasibətilə Sizləri və sizin simanızda Naxçıvan Universitetinin bütün professor-müəllim heyətini, tələbələri və bu universitetdə təhsil alıb indi həyatın müxtəlif sahələrində çalışan hər bir kəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından ürəkdən təbrik edirəm, Sizin hamınıza gələcək işlərinizdə uğurlar diləyirəm.

Naxçıvan qədim tarixə malik olan bir diyardır, qədim Azərbaycan torpağıdır.

Naxçıvan torpağında əsrlər boyu böyük-böyük şəxsiyyətlər yetişmiş, meydana gəlmiş və dünya mədəniyyətini, dünya elmini zənginləşdirən, dünya elminə böyük töhfələr verən insanlar olmuşlar. Fəqət Naxçıvanda ali təhsil ocağı, ali məktəb ilk dəfə 25 il bundan əvvəl yaranmış, bu da ki, qeyd olunduğu kimi Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi 1967-ci ildə, sonra isə 1972-ci ildə müstəqil bir ali məktəb kimi təsis olunmuşdur və artıq 25 ildir ki, fəaliyyət göstərir.

Biz bu gün böyük məmnuniyyət hissi ilə qeyd etməliyik ki, bu ali təhsil məktəbinin yaranması və 25 illik fəaliyyəti Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında, mədəniyyətində, sosial həyatında, onun inkişaf etməsində böyük rol oynamış və Azərbaycan Respublikasının yüksək təhsilli kadrlarla təmin olunmasına öz töhfəsini vermişdir.

25 il tarix etibarı ilə o qədər də böyük bir dövr deyil. Ancaq bu müddətdə 8 mindən artıq ali təhsilli mütəxəssis hazırlanıb və onların bir hissəsi indi elmin inkişafı ilə, ali təhsilin inkişafı ilə məşğuldur.

Bunlar hamısı şubhəsiz ki, Azərbaycan xalqının, Azərbaycan Respublikasının bu 25 illik dövründə əldə etdiyi böyük nailiyyətlərin bir qismidir.

Biz bu gün bu 25 il müddətində burada Azərbaycanın bütün sahələri üçün yüksək təhsilli kadrlar hazırlanması kimi böyük, məsuliyyətli və

əziyyətli işdə fəaliyyətlərinə görə bütün 25 ildə burada fəaliyyət göstərmiş professorlara, müəllimlərə və bütün ali təhsil ocağının əməkdaşlarına öz hörmət və ehtiramımızı və minnətdarlığımızı bildirməliyik. Ali təhsilli kadr yetişdirmək şubhəsiz ki, böyük təhsil, eyni zamanda böyük əmək tələb edir. Biz onu qeyd etmək istəyirik ki, ali təhsil sahəsində çalışan hər bir şəxs fədakar insandır və onların əməyini həmişə xalq qiymətləndirib və ali təhsil ocaqlarında çalışan adamlara həmişə xalq arasında böyük hörmət və ehtiram var. Bu gün də akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin professor və müəllim heyəti Naxçıvan Muxtar Respublikasında nüfuzlu bir kollektivdir və biz çalışacağıq ki, bu kollektivin bundan sonra da nüfuzu və Naxçıvan Muxtar Respublikasının ictimai, siyasi mühitinə təsiri daha artıq olsun, daha da bizim üçün gərəkli olsun.

İndi Azərbaycan müstəqil dövlətdir. Azərbaycan xalqı öz milli azadlığına nail olubdur. İndi Azərbaycan bir müstəqil dövlət kimi dünyanın hər bir dövləti ilə, hər bir ölkəsi ilə müstəqil əlaqə yaratmağa və bu əlaqələrdən öz ölkəsinin, öz dövlətinin gələcək inkişafı üçün istifadə etməyə malik olan bir dövlətdir. Bu baxımdan Naxçıvan Dövlət Universiteti indi sərbəst bir ali məktəbdir. Onun Azərbaycanın bütün ali məktəbləri ilə əlaqəsini inkişaf etdirməyə daha da əlverişli şərait var və eyni zamanda dünyanın bütün ölkələri ilə, orda olan ali məktəblərlə, elm mərkəzləri ilə, elm ocaqları ilə əlaqə saxlamağa imkanları vardır. Çox yaxşı bir haldır ki, artıq bu barədə müəyyən addımlar atılıb, qonşu İran İslam Respublikası, Türkiyə Cümhuriyyətinin ali təhsil ocaqları ilə, elmi mərkəzləri ilə Naxçıvan Dövlət Universiteti arasında müəyyən əlaqələr yaranıb və bu gün Naxçıvan Dövlət Universitetinin bu yubiley mərasimində İran İslam Respublikasının və Türkiyə Cümhuriyyətinin ali məktəblərinin və dövlət adamlarının iştirakı buna sübutdur. Sizi əmin edə bilərəm ki, Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti bu sahədə Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə lazımi köməklik edəcək və lazım olan şəraitləri yaradacaqdır.

25 illik fəaliyyətinizə görə sağ olun. Fəqət indi qarşıda çox böyük və mürəkkəb həyat yolu durur. O da Azərbaycan Respublikasının Dövlət müstəqilliyi əldə etməsi, Azərbaycanda yeni siyasi iqtisadi quruluşun yaranması, yeni bir cəmiyyətin yaranması, Azərbaycanın milli dövlətçiliyinin inkişaf etdirilməsi ilə əlaqədardır. Bu sahədə ziyalıların, alimlərin, ali məktəb müəllimlərinin fəaliyyəti indi Azərbaycan Respublikası üçün çox gərəklidir, çox faydalıdır və ona görə də bizim bu gün sizin bu bayram günündə, yubiley günündə tövsiyələrimiz ondan ibarət olacaqdır ki, Siz bu müstəqil Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında daha da fəal iştirak edəsiniz və öz işinizi yeni tələblər əsasında qurasınız.

Şübhəsiz ki, 25 il Naxçıvan Muxtar Respublikası Universitetində toplanılmış elmi potensial, ali məktəb işi təcrübəsi böyük bir sərvətdir. Ancaq bü sərvət indi gərək daha səmərəli istifadə olunsun. Bir tərəfdən ona görə ki, bu sərvətin istifadə olunması üçün sərbəstlik şəraiti yaradılıb, ikinci tərəfdən ona görə ki, indi Azərbaycanın müstəqil dövlət kimi bax bu sahədən olan köməyə ehtiyacı çox böyükdür.

Artıq bundan sonra sizin hazırlayacağınız ali təhsilli kadrlar gərək daha yüksək kriteriyalara, yüksək tələblərə uyğun olsunlar. İndi artıq siz keçmiş Sovetlər İttifaqının çərçivəsində olan təcrübəni yox, bütün dünya təcrübəsini gərək mənimsəyəsiniz, ondan səmərəli istifadə edəsiniz və ali təhsil işinin təşkilini daha müasir səviyyədə təşkil edəsiniz.

Bu baxımdan Türkiyə və İran dövlətlərinin ali məktəbləri ilə əlaqələr Sizə yardımçı olacaqdır. Ancaq tək bununla qane olmaq olmaz. Vaxtı ilə, yaxın keçmişdə Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu bir dövrdə Azərbaycanın ali məktəblərinin Sovetlər İttifaqının yüksək səviyyəli universitetləri ilə, ali məktəbləri ilə əlaqəsi çox böyük səviyyədə idi. O dövrün əlbəttə ki, biz hər tərəfini düzgün qiymətləndirməliyik. Moskva, Leninqrad universitetlərinin və onların yüksək səviyyəli professorlarının, ali məktəb müəllimlərinin bilikləri şübhəsiz ki, Azərbaycanda kadr hazırlanması üçün çox böyük kömək etmişdir. Bunu heç bir vaxt inkar etməməliyik. Ancaq təəssüf ki, o dövrdə biz ancaq bu çərçivə içərisində yaşamışıq. İndi isə bütün dünya bizim qarşımızda açıqdır və bütün dünyanın bəşər elmindən, bəşəri ali təhsil təcrübəsindən biz gərək səmərəli istifadə edək. Bu sahədə Naxçıvan Dövlət Universiteti, mənə belə gəlir ki, öz vəzifələrini çox dəqiq müəyyən etməlidir və öz vəzifələrini həyata keçirməlidir.

Bu 25 illik yubiley haqqında da danışanda şübhəsiz ki, adətən belə günlərdə nailiyyətlərdən danışırlar. Ancaq nailiyyətlər şübhəsiz ki, heç vaxt bizim əlimizdən getməyəcək. Bu dövrdə həll olunmamış məsələlər, universitetin həyatında buraxılmış səhvlər, nöqsanlar, çatışmazlıqlar da olubdur. Mənə, ümumiyyətlə, ali təhsil işi çox yaxından məlum olduğuna görə bu barədə kəskin bir neçə söz deməyə mənəvi haqqım var. Mən Azərbaycanda ali təhsilin inkişafı ilə vaxtı ilə yaxından məşğul olmuşam. Həm Sovetlər İttifaqının rəhbər vəzifəsində olduğum dövrdə, Sovetlər İttifaqının Ali Təhsil Nazirliyinə rəhbərlik etdiyim dövrdə bu işlərlə yaxından tanış olmuşam. Ona görə də mən bu sahədə keçmişdə Azərbaycanda, o cümlədən Naxçıvan Universitetində əldə olunmuş nailiyyətlərlə yanaşı, həmişə çatışmazlıqları, nöqsanları və mənfi halları da görmüşəm və bunların aradan qaldırılması üçün çox çalışmışam. Bu gün nə qədər acınacaqlı olsa da deməliyik ki, ali təhsil sahəsində Azərbaycanda, Azərbaycanın ali məktəblərində çox xoşagəlməyən hallar baş vermişdir, mənfi cəhətlər var, nöqsanlar var və təəssüf ki, son illərdə də

ali təhsil məktəblərinin, universitetlərin, institutların kollektivləri belə mənfi halların mövcud olması ilə artıq uyğunlaşmışlar. Müəyyən səviyyədə belə halları təbii hal kimi qəbul etmişlər və bunların aradan qaldırılması üçün mübarizəni zəiflətmişlər. Bəzən belə mübarizə hətta olmamışdır. Əksinə, bəzi mənfi hallar kök salmış və müəyyən qədər yenə də deyirəm bəziləri tərəfindən təbii, zəruri amillər kimi hökm sürmüşdür. İndi əgər biz Azərbaycanın milli azadlığına nail olmuşuqsa, Azərbaycanda bir müstəqil dövlət qururuqsa, Azərbaycanda hüquqi dövlət yaradırıqsa, Azərbaycanda demokratik cəmiyyət uğrunda mübarizə aparırıqsa biz saflıqdan, paklıqdan, mənəvi təmizlikdən mübhəsiz ki, möhkəm yapışmalıyıq. Bu, ancaq bu yol ilə uğurlu gələcəyə aparar. Bizim ata-babalarımız, bizim dini, mənəvi mənbəyimiz olan İslam dini və bizim əsrlər boyu nəsillərimizin istifadə etdiyi "Qurani-Kərim" müsəlmanları və bu dinə itaət edən bütün adamların hamısını paklığa dəvət eləyib, təmizliyə dəvət eləyib, mənəviyyata dəvət eləyib və bu tələblər bizim xalqın ən yüksək zirvələrindən olan ziyalılar tərəfindən, mütəfəkkir insanlar tərəfindən, alimlər tərəfindən ən xüsusi bir şərt kimi elan olunub. Buna görə də mən istərdim ki, bu gün, bu yubiley günü Naxçıvan Muxtar Respublikasının həyatında son illərdə çox böyük kök salmış mənfi hallardan danışıb kiminsə qanını qaraldım, yaxud kiminsə xatirinə dəyim. Ancaq mən bir həqiqəti sevən adam kimi bu gün, bu bayram günü bunu sizə deməyi özümə borc bilirəm. Olan-olub, keçən-keçib. Ancaq gərək bilək ki, Azərbaycan xalqı öz milli azadlığı ilə yanaşı gərək öz yüksək mənəviyyatına, yüksək əxlaqına sadiqliyini də bundan sonra daha da əziz tutsun və daha da sübut etsin. Bu sahədə şübhəsiz ki, bizim ali təhsilli ixtisasçıların, mütəxəssislərin, alimlərin, professorların, müəllimlərin rolu çox böyükdür. Müəllim dövrü-qədimdən, hələ vaxtı ilə əhalinin əksəriyyəti savadsız olduğu bir dövrdən, lap cəmiyyətdə kiçik bir yer tutduğu vaxtldan həmişə ən yüksək hörmətə malik olan adam, ən yüksək mənəviyyata malik olan adam kimi xalq arasında, kütlə arasında, insanlar arasında qəbul olunmuş bir şəxsiyyətdir. Müəllim ali-orta məktəb müəllimidir, ali məktəb müəllimidir fərq etməz, bu şöhrətli-şərəfli bir addır. Müəllim - dərs vermək, tərbiyə etmək sahəsində çalışan adam gərək hər dəqiqə bilsin ki, onun dərs verməyə, təhsil verməyə, tərbiyə etməyə mənəvi hüququ var. Mənəvi hüququ olmayan adam gəoək özü içində, özündə bü işdən imtina etsin. Ona görə də mən bir də deyirəm, gəlin bu 25 illik bir tarixə yekun vurarkən, yeni bir mərhələyə keçərkən bax, bu məqsədi heç vaxt unutmayaq. Nəinki unutmayaq, gərək Naxçıvan Dövlət Universitetinin bütün fəaliyyətində yüksək elmi səviyyə, cürbəcür fənlərə gənclərin cəlb olunması ən əsas vəzifələrdən biri olsun. Buna görə də indi Azərbaycan Respublikasında bu sahədə, ali təhsil sahəsində aparılan bəzi tədbirlərə mən şəxsən

böyük ümid bəsləyirəm. Ancaq çox arzu edərdim ki, bu ümidlərimiz puç olmasın, görülən işlər nəticə versin. Biz Naxçıvan Muxtar Respublikası üçün kadrları həm Naxçıvan Universitetində, həm də Azərbaycanın bütün ali məktəblərində hazırlamaq imkanına malikik və bu sahədə öz fəaliyyətimizi davam etdirəcəyik. Bildiyimiz kimi, bu yaxın vaxtlarda Türkiyə dövləti ilə Naxçıvan Muxtar Respublikasında vaxtı ilə mart ayında bağlanmış iş birliyi protokolu əsasında 75 nəfər gənc bu il Türkiyənin universitetlərinə daxil oldular və Türkiyədən gələn nümayəndələr burada Naxçıvan Xalq Təhsili Nazirliyi ilə birlikdə imtahanları qısa bir müddətdə aparıb. O 75 nəfəri biz Türkiyəyə göndərdik. Artıq onlar Turkiyə universitetlərində oxumağa başlayıblar. Bu sevindirici haldır. Bizim protokolda 100 nəfər nəzərdə tutulub ki, 25 nəfəri də başqa sahəyə gedəcəkdir.

Naxçıvan üçün bir də o protokol üzrə Türkiyə hər il Naxçıvandan Türkiyənin ali məktəblərinə 100 nəfər məzunlar qəbul edib öz hesabına oxudub, bizə kadrlar hazırlamağı boynuna götürüb. Siz təsəvvür edin, vaxtı ilə biz Azərbaycanda ildə 800-900 nəfər Sovetlər İttifaqının başqa şəhərlərində olan ali məktəblərə tələbə göndərirdik. O cümlədən Moskva, Leninqrad, Kiyev, Sverdlovskdan başqa Pribaltikanın, hətta Orta Asiyanın ali məktəblərinə göndərirdik. Və o məktəblərdə təhsil alan ali təhsilli mütəxəssislərin çoxu indi Azərbaycana, onun həyatına çox böyük xeyir gətirən adamlardır. İndi Türkiyə hökuməti Naxçıvan MR üçün öz üzərinə götürübdür, öz hesabına ildə 100 nəfər oxudub bizə ali təhsilli kadr göndərəcəkdir.

İran İslam Respublikası ilə bizim bağladığımız müqavilə əsasında İran İslam Respublikasının ali məktəblərinə və orta məktəblərinə, orta ixtisas məktəblərinə də Naxçıvan Muxtar Respublikasından oxumaq üçün adamlar gedə bilərlər və eyni zamanda Naxçıvan Muxtar Respublikasının Universitetində və başqa təhsil ocaqlarında İrandan məzunlar gəlib təhsil ala bilərlər. Belə bir müqavilə də var, biz bundan da istifadə edəcəyik.

Ancaq eyni zamanda xatırlatmaq istəyirəm ki, əgər indi Azərbaycandan Moskva və Leninqrad universitetlərinə bir nəfər tələbə göndərmək lazım olsa, böyük məbləğdə vəsait tələb edilər. İndi pulsuz başqa bir dövlət bir dövlət üçün tələbə oxutmur. Vaxtilə bu imkandan biz istifadə etmişik. İndi isə bizim qardaş ölkələrimiz Türkiyə və İran Respublikaları yenə də Azərbaycana, o cümlədən Naxçıvana heç bir vəsaitsiz kadrların hazırlanmasına kömək etməyə hazırdırlar və bu işlər artıq başlanıbdır. Ona görə də, biz həm Naxçıvan Universitetinin, həm də Azərbaycanın digər ali təhsil ocaqlarının bütün imkanlarından istivdə etməli, həm İran, həm də Türkiyə Cümhuriyyətlərinin öz üzərlərinə götürdükləri öhdəliklərdən bizim üçün kadr hazırlamaqda istifadə et-

məli, həm də dünyanın başqa ölkələrinə çıxmalıyıq. Mənə belə gəlir ki, bütün bu sahələrdə Naxçıvan Dövlət Universiteti gərək şübhəsiz ki, öz aparıcı rolunu oynasın və bu işlərin təşkilatçısı olsun. Ali Məclis və Nazirlər Kabineti isə bu sahədə öz səylərini göstərəcəklər. Ancaq bir hadisə məni narahat edir.

Burada qeyd olundu ki, təəssüf ki, bu il qəbul olunan tələbələr bu günləri burada iştirak etmirlər. Biz, düzdür, bu məsələni o qədər də düzgün hesab etmədik. Ancaq başqa əlac yox idi. Naxçıvan Muxtar Respublikasının Universitetinə, sonra hətta Naxçıvan Muxtar Respublikasındakı orta ixtisas məktəblərinə - Kənd Təsərrüfatı Texnikumu, yaxud Tibb Texnikumu, yaxud Politexnikuma məzunların qəbul olunması, hamısını gedib imtahanlarını Bakıda verməsi tələb olunur. Mən bu işi düzgün hesab etmirəm. Mən arzu edərdim ki, bu yaxşı nəticə versin. Ancaq Naxçıvan Muxtar Respublikası ağır blokada şəraitində olduğu bir dövrdə yeganə nəqliyyat yolu hava olduğu halda və bu da çox məhdud olduğu halda və burada 6 aydır ki, dəmir yolu işləmədiyinə görə demək olar ki, butun sənaye müəssisələri dayanıb, insanlar işsizdir, məvacib almırlar. Yaşayış çox ağırdır, elektrik enerjisi, görürsünüz, yoxdur, bir çətinliyinən bura verilibdir, yanacaq yoxdur, ərzaq malları çatışmır. Biz Türkiyədən, İrandan gələn malların vasitəsilə, bir də ki, Bakıdan İran ərazisi ilə uzun yolnan gətirilən ərzaq malları vasitəsilə Naxçıvanda əhalinin təminatını müəyyən qədər təşkil etməyə nail oluruq. Belə bir vəziyyətdə bir neçə adamın ali məktəbə, yaxud da ki, orta ixtisas məktəblərinə girmək üçün Bakıya getməsi heç də düzgün hal deyil, məqsədəuyğun bir şey deyil. Mən şəxsən bunu belə düşünülməmiş bir tədbir kimi qəbul edirəm, ancaq mən buna açıq etirazımı bildirmək istəmirdim. Çünki, azadlıqdar. Qoy kim nə cürə istəyir istifadə eləsin, hansısa imkanlardan istifadə eləsin. Ancaq arzu edərdim ki, bu tədbir yaxşı nəticə versin. Görək Naxçıvan üçün nə nəticə verəcəkdir, bilmirəm? Mən bu məsələyə toxunaraq Azərbaycanın Ali Təhsil Nazirliyinə bildirmək istəyirəm ki, belə dəyişiklikləri çox dərin düşünüb və lazımi səviyyədə aparmaq lazımdır.

Ali məktəblərə qəbul sentyabr ayında olmalıdır. Bu gün noyabr ayının ortasıdır. Ali məktəblərə qəbul gecikibdir. Bunları vaxtında hazırlamaq lazımdır. Əgər hazırlamamışlarsa, ola bilər ki, müəyyən bir mərhələdə müəyyən bir dövrü keçirmək lazımdır. Bilirsiniz, mən keçmiş təcrübədən bilirəm ki, ali məktəblərə ildə 100 min nəfərdən artıq Azərbaycanda məzun ərizə verir. Hər bir nəfərin dalında 4-5 nəfər ailə üzvləri durur. Bu təxminən 5-6 yüz min, 7-8 yz min nəfər adamın həyatında müəyyən bir həyəcan dövrüdür. Belə bir işin təşkilinə əvvəlki sistem əgər yaramırdısa şübhəsiz ki, orda çox nadinc hallar vardır. Mən onu dedim, əgər başqa sistem düzəlirsə, bunu gərək vaxtında hazırlayıb, vax-

tında da həyata keçirdəydilər. İndi Azərbaycanın əlbəttə ki, yaxın şəhərlərindən Bakıya gəlmək olar. Ancaq onlar gəlməlidir. Çünki Bakıda əgər universitetə girirlərsə, gəlib Bakıda imtahan verəcəklər. Amma Naxçıvan Universitetinə girən, yaxud Naxçıvan Tibb Texnikumuna girən tələbə nə üçün getsin Bakıda imtahan versin və oradan da buraya qayıtsın. Yaxşı olmaz ki, 15-20 nəfər imtahan qəbul eləyən adam gəlsin bura. Nəinki 3-4 min nəfəri burdan Bakıya çəkib aparırlar. Bilirsiniz, ola bilər bu gün mənim bu danışıqlarım bu təntənəli mərasimə müəyyən qədər başqa bir rəng verir, ancaq biz hər şeyi açıq deməliyik. Mən bu gün bu məsələyə öz münasibətimi bildirirəm. Allah eləsin ki, bu tədbirlər yaxşı nəticə versin. Yaxşı nəticə versə, narazılıqlar hamısı geridə qalacaq.

Ancaq əsas mənim sözlərim bu deyil, əsas sözlərim odur ki, Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanda indi böyük ali təhsil potensialı var, ali təhsil məktəblərinin çox böyük professor-müəllim dəstəsi var, ordusu var. Demək olar ki, bu potensialdan səmərəli istifadə etmək lazımdır. Biz çox xöşbəxtik ki, Azərbaycan indi öz müstəqilliyini əldə etdiyi dövrdə Azərbaycanın minlərlə professoru var, bir neçə qat ondan artıq elmlər namizədi adı olan müəllimləri, ali məktəb müəllimləri var. Bunların bir çoxu dünya səviyyəsində olan alimlərdir, ali məktəb müəllimləridirlər. Bunların hamısından səmərəli istifadə olunması Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsi üçün əsas şərtlərdən biridir. Mən bu günləri arzu edirəm ki, Naxçıvan Muxtar Respublikasının Dövlət Universitetinin professor-müəllim kollektivi bu baxımdan öz vəzifələrini daha da dəqiq müəyyən etsinlər və yeni mərhələdə daha da fədakar çalışsınlar, Azərbaycanda ali təhsilli mütəxəssislərin hazırlanması üçün öz əməklərini sərf etsinlər və Azərbaycanın müstəqil Dövlət kimi inkişaf etməsi üçün yaxından iştirak etsinlər.

Bir daha Sizin hamınızı ürəkdən təbrik edirəm, sizlərə və sizin simanızda bütün Naxçıvan Dövlət Universitetinin kollektivinin hamısına can sağlığı, səadət və bütün işlərinizdə müvəffəqiyyətlər arzu eləyirəm!

Naxçıvan şəhəri, 12 noyabr 1992-ci il.

# Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə

Sizi - Azərbaycanın mötəbər təhsil ocağı olan Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətini və tələbələrini universitetinizin 30 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, xöşbəxtlik və nəcib fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafında Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri və böyük xidmətləri vardır. Zəngin maarifçilik ənənələrinin layiqli davamçısı olan bu universitet Muxtar Respublikanın ali təhsilli mütəxəssislərə olan ehtiyacını ödəyən müasir təhsil mərkəzidir. Fərəhli haldır ki, bu təhsil ocağının yetirmələri həm Naxçıvanın müxtəlif guşələrində, həm də onun hüdudlarından kənarda uğurla çalışırlar.

Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvanın dövlət müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsi uğrunda mübarizəsində universitetin göstərdiyi xidmətlər xüsusilə qeyd olunmalıdır. Bu ali məktəb qonşu ölkələrin elm və təhsil mərkəzləri ilə geniş əlaqələr yaratmaqla bir daha Naxçıvanın Şərqin qapısı olduğunu nümayiş etdirir.

Bugünkü iqtisadi sıxıntılara baxmayaraq, həyatını gənc nəslin yetişdirilməsinə həsr edən, ömrünün mənasını xalqına, vətəninə layiqli vətəndaş tərbiyə etməkdə görən Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətinin fədakar əməyindən məmnun olduğumu bildirirəm. Əminəm ki, Universitet adını daşıdığı böyük vətənpərvər alim Yusif Məmmədəliyevin, xalqımızın görkəmli şəxsiyyətinin irsinə, bu qədim diyarın zəngin ənənələrinə layiq kadrlar yetişdirilməsi işində bundan sonra da var qüvvəsini sərf edəcəkdir.

Bu yubiley münasibətilə bütün təhsil işçilərini, bütün xalqımızı səmimi qəlbdən təbrik edir, Azərbaycanımızın çiçəklənməsi və tərəqqisi naminə yeni nəslin tərbiyəsi işində Naxçıvan Dövlət Universitetinin kollektivinə böyük nailiyyətlər arzulayıram.



**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**
**Bakı şəhəri, 29 oktyabr 1997-ci il**



Müstəqilliyə xidmət amalı
Ülviyyə Həmzəyeva (NDU-nun III kurs tələbəsi).

## Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun açılışı mərasimi



11 oktyabr 1999-cu ildə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin 1600 yerlik yeni tədris korpusunun açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir. Universitetin professor-müəllim heyəti, tələbələri, muxtar respublika ictimaiyyətinin nümayəndələri, yubileyə gəlmiş qonaqlar dövlətimizin başçısını hərarətlə qarşılamışlar.

# Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi

- Əziz dostlar!
Əziz bacılar, qardaşlar!
Əziz Naxçıvanlılar!
Əziz ziyalılar!

Mən bu gün Naxçıvan Dövlət Universitetinin müəllim, professor və tələbə kollektivi ilə burada görüşümdən həddən ziyadə şadam. Sizin hamınızı səmimi qəlbdən salamlayıram və sizə - Naxçıvan Muxtar Respublikasının ziyalılarına, gənclərinə, tələbələrinə, müəllimlərinə öz hörmət, ehtiramımı bildirirəm.

Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri, siyasi xadimlər olmuşlar. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur. Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının, inkişafının məntiqi nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir. Universitetin yaranma tarixi haqqında burada artıq deyildi. Siz hamınız bunları bilirsiniz. Çox xöşbəxtəm ki, mən - bu universitetin yaranmasının təməlini qoyan insanlardan biri və onun təşəbbüskarı 30 il ondan sonra yenə də buradayam, sizinləyəm, bu universitetin ötən bu müddətdə nə qədər böyüməsini, inkişaf etməsini öz gözlərimlə görürəm. Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Dövlət Universitetinin bu günü məni bəlkə sizdən də çox sevindirir. Təbiidir ki, burada zəhmət çəkmiş hər bir insan, universitet yaranandan burada çalışanlar bu gün öz zəhmətinin bəhrəsini görürlər. Bu universitetdə vaxtilə təhsil alıb, indi müəllimlik edənlər də öz zəhmətlərinin nəticəsini görürlər.

Mən buraya gələrkən universitetin qocaman müəllimləri, professorları ilə görüşdüm. Köhnə dostlarımı - Səfərəli Babayevi, Yunis Qasımovu və başqalarını bir daha gördüm. Mən onları xatırlayıram. Mən nəinki 30 il bundan öncəni, 50 il bundan öncəni də xatırlayıram.

Mən 40-cı illərdəNaxçıvanda işləyərkən həmin bu ali məktəbdə bu gün gənclərə yüksək təhsil verənlərin çoxu mənimlə bir yerdə idilər. Biz Naxçıvanda onlarla bir yerdə çalışırdıq, Naxçıvanı inkişaf etdirmək istəyirdik. Onda biz gənc idik, ancaq əlimizdən gələni edirdik. Biz çox işlər gördük. Naxçıvanın siması nə qədər dəyişibdir! Bu dəyişikliyin ən gözəl

nümunəsi Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəlliyev adına Dövlət Universitetidir.

Yaşlı adamlar bilirlər ki, vaxtilə, keçmişdə bu yer Çar Rusiyasının kazaklarının, ordusunun yerləşdiyi ərazi olubdur. Sonra buradakı binaları 41-ci Naxçıvan sərhəd dəstəsinə vermişdilər. Onlar burada yerləşirdilər. Uşaqlıq illərimi yadıma salıram. Mən hələ gənc ikən bəzən buraya gəlirdim, buradakı rus sərhədçilərinin at çapmalarına, yaxud at üstündə qılınc oynatmalarına baxırdım. Burada bir xəstəxana da var idi. Naxçıvanın mərkəzindən həmin xəstəxanaya gəlmək üçün xeyli yol keçmək lazım idi. Biz indi bu yolu avtomobillə tez gəlirik. Ancaq o vaxt piyada gəlib, piyada gedirdik. Bəzən yay vaxtı da buraya gəlib-getmək çətin olurdu.

Xatirimdədir, demək olar ki, 8-10 yaşımda mənim burnumdan qan açıldı. Anam nə qədər çalışdısa da ki, bu qanı saxlaya bilmədi. Anam məni yanına aldı, burnumdan qan axa-axa biz burada olan xəstəxanaya piyada gəldik. Buradakı həkimlər mənə kömək etdilər, yoxsa qan məni tamamilə aparırdı. O günlər yadımdadır. Mən bunları nə üçün xatırlayıram? Çünki bu yer keçmişdən, hələ qədim zamanlardan böyük bir məskən olmuşdur. Bura əvvəl rus ordusunun, sonra sovet ordusunun, sovet sərhəd dəstələrinin olmuşdur.

Bu universiteti, sonra isə onun filialını yaradanda fikirləşdik ki, bu, harada yerləşsin. O vaxt o, buradakı binaların bəzilərində yerləşdirildi. Bəli, amma universiteti yerləşdirmək üçün burada olan sərhəd dəstəsini köçürmək lazım idi.

Mən təşəbbüs göstərdim. Sərhəd dəstələri binalarının tikilməsinin respublika büdcəsindən keçməməsinə - o vaxt bu, ittifaq büdcəsindən keçirdi - baxmayaraq, mənim xüsusi qərarımla Azərbaycan büdcəsindən pul ayrıldı. Mən indi sizə məlum olan yerdə o vaxt sərhəd dəstələri üçün qərargah, bina tikdirdim, buranı boşaltdırdım və Naxçıvan Dövlət Pedaqogi İnstitutuna verdim.

Ancaq təbiidir ki, yeni yaranmış ali məktəb bu köhnə binalarda çox yaşaya bilməzdi. Ona görə də burada universitet şəhərciyi tikilməsi barədə qərar qəbul etdik. Bu universitet şəhərciyinin baş planı vardır. Buradakı tədris korpusları, yataqxana və bu böyük sahənin hamısı Naxçıvan Dövlət Universitetinə verilibdir.

Şübhəsiz ki, bizim gördüyümüz işlər öz nəticəsini verdi. Naxçıvan Dövlət Universiteti artıq özü üçün müəyyən şərait əldə etdi. Amma biz bununla kifayətlənmədik. Biz universiteti daha da genişləndirmək istəyirdik. Ona görə də bir neçə yeni binanın tikilməsi haqqında qərar qəbul edilmişdir. Bu binaların biri də indi açılışına toplaşdığımız binadır.

Bəli, mən istəyirdim ki, bu bina qısa vaxtda tikilsin. Amma sonrakı hadisələr bunların hamısını dağıtdı. Mən 1990-cı ildə Moskvadan yenidən Naxçıvana gələrkən bu işlə dərhal maraqlandım. Ancaq o vaxt elə bir im-



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun rəmzi lentini kəsərkən (11.X.1999).

kanım yox idi. Mən 1991-ci ilin sentyabr ayında naxçıvanlıların iradəsi ilə Naxçıvan Muxtar Respublikasına rəhbər, Ali Məclisə sədr seçildim. O vaxt da bu barədə bir iş görməyə çalışdım. Xatirinizdədir, o zaman sadəcə, lazım idi ki, Naxçıvanda insanlar yaşaya bilsinlər, soyuqdan donmasınlar, elektrik enerjisi, vaxtlı-vaxtında su, ərzaq ala bilsinlər. Çünki o vaxt Ermənistanın blokadası nəticəsində Naxçıvan Azərbaycanın əsas hissələrindən ayrı düşmüş vəziyyətdə idi. Azərbaycandan Naxçıvana gələn bütün xətlər - elektrik, qaz xətləri, avtomobil yolları, dəmir yolu kəsilmişdi. Deməli, o vaxt yaşamaq uğrunda mübarizə aparmaq lazım idi və biz mübarizə aparırdıq.

İndi qaz haqqında danışanda nə yadıma düşür? Mən Azərbaycanın bütün kəndlərini qazlaşdırdım, o cümlədən Naxçıvan Muxtar Respublikasına da qaz xətti çəkdirdim. Mən həmin kəməri Dağlıq Qarabağdakı, Sisyandakı hündür dağların başından gətirdib Naxçıvana qaz çəkdirdim və muxtar respublikanın hər yerini qazlaşdırdım.

Mən 1990-cı ildə buraya gələndə Şahbuz rayonundakı Keçili kəndinə getdim. Onda hələ bura qaz gəlirdi. Mən yaşlı adamlarla görüşdüm. Bir yaşlı kişinin o vaxtkı sözü indi yadıma düşür. O dedi ki, oğlum, mən Keçilidə hər gün səhər durub kibriti çəkərək bu qazı yandıranda həmişə sənə dua etmişəm. Bu faktı nə üçün yada salıram? Bəli, o vaxtlar ki, Azərbaycanda, məndə imkanlar var idi, mən həmin imkanlardan tamamilə istifadə edib, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmağa çalışırdım. Ancaq sonra bunların hamısı kəsildi, Naxçıvan qazsız, elektrik enerjisiz, susuz, yolsuz qaldı.

Buna baxmayaraq, mən yenə də universitet haqqında düşünürdüm, əlaqə saxlayırdım. Ancaq o zaman çox iş görməyə imkan yox idi. Lakin mən 1993-cü ildə yenidən Azərbaycana rəhbər seçiləndən sonra Azərbaycanın hər yerinə, hər bir universitetinə, o cümlədən Bakı Dövlət Universitetinə göstərdiyim qayğı kimi, Naxçıvan Muxtar Respublikasının Universitetinə də qayğı göstərməyə başladım. İndi blokada şəraitində yaşayan, yolu olmayan, Bakı ilə ancaq təyyarə vasitəsilə əlaqə saxlayan Naxçıvan belə bir binanın tikilib başa çatmasını təmin edib və burada yeni bir tədris korpusu yaradıbdır. Bü, böyük hadisədir.

Amma bu, son illər Naxçıvanda gedən quruculuq işində yeganə hadisə deyildir. Biz dünən bir Ticarət-Tədris Mərkəzinin binasını açdıq. O, çox gözəl binadır. Bilirsiniz ki, dünən biz vaxtilə mənim təşəbbüsümlə tikintisinə başlanmış böyük məscid binasını da açdıq. İndi Naxçıvanda məktəblər tikilir. Azərbaycanın çox yerlərində məktəblər tikilmir, amma Naxçıvanda tikilir. Muxtar respublikada xəstəxanalar tikilir, yəni Azərbaycanın başqa bölgələrinə nisbətən Naxçıvanda ən çətin şəraitdə yaşayan insanlar quruculuq işləri ilə məşğul olurlar, zəhmət çəkirlər, fədakarlıq, vətənpərvərlik göstərirlər. Sağ olun.

Güman edirəm ki, bunlar Naxçıvanda quruculuq işlərinin hələ yeni mərhələsidir. Bundan sonra da çox işlər görüləcəkdir. Naxçıvan yaşayıb, yaşayır. Naxçıvan blokada şəraitində əyilməyibdir, dözübdür, bundan sonra da yaşayacaqdır.

Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il bundan öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Qonşu ölkələrdən - Türkiyədən, İrandan buraya təhsil almaq üçün tələbələr gəlir və bu universitetin dünyanın başqa universitetləri ilə elmi, təhsil və başqa əlaqələri vardır. Bunlar hamısı bir daha onu sübut edir ki, Naxçıvanda təhsilə, elmə, mədəniyyətə həmişə qayğı göstərilir, yüksək münasibət göstərilir və naxçıvanlılar da nəyə qadir olduqlarını dünyaya həmişə nümayiş etdiriblər.

Əziz dostlar, bu gün Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin yeni təhsil binasının açılışı münasibətilə mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, siz bu gözəl binadan universitetdə təhsilin, elmin inkişaf etməsi üçün daha səmərəli istifadə edəsiniz.

Universitetin professor-müəllim heyətinə ali təhsilin, elmin, mədəniyyətin inkişafında yeni-yeni uğurlar arzulayıram. Universitetin tələbələrinə, Naxçıvan Muxtar Respublikasının bütün tələbələrinə, gənclərinə cansağlığı, yüksək vətənpərvərlik, təhsil uğrunda daim mübarizə aparmaq üçün əzm arzulayıram. Naxçıvan gənclərinə hərbi vətənpərvərlik hisslərini daha da yüksəltməyi arzulayıram. Naxçıvan gənclərinə arzu və tövsiyə edirəm ki, onlar indiki nəsillər kimi, bizim kimi Naxçıvanı qursunlar, yaratsınlar, inkişaf etdirsinlər, daha da yüksəltsinlər.

Biz XXI əsrə qədəm qoyuruq. XXI əsr gənclərin əsridir. Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini, müstəqil Azərbaycanı gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidirlər. Gənclərin vəzifəsi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, elmini inkişaf etdirməkdir.

Ümidvaram ki, Azərbaycanın bugünkü gəncləri, o cümlədən Naxçıvanın gəncləri, Naxçıvan Dövlət Universitetinin tələbələri bunların hamısına qadirdir və biz gələcəkdə onların işlərinin nəticələrinin şahidi olacağıq.

Mən sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı, səadət, xöşbəxtlik, bütün işlərinizdə uğurlar arzu edirəm. Sağ olun.

**(Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı).**



Akademik Adilə Namazovanın Azərbaycan Respublikasının Prezidenti
Heydər Əliyevlə Naxçıvan Dövlət Universitetində görüşü



Ümumxalq ehtiramı

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı

- Möhtərəm zati-aliləri!

Hörmətli qonaqlar və mərasim iştirakçıları!

Naxçıvan Dövlət Universiteti və onun açılışına toplaşdığımız 1600 yerlik yeni tədris korpusu möhtərəm Heydər Əliyevin qayğısının konkret nəticəsi və əyani ifadələrindən biridir. İndi, müstəqil dövlətçilik şəraitində yaşadığımız bir dövrdə, 25 il əvvəl olmuş bir hadisəni xatırlatmaq yerinə düşər. 1974-cü ildə Naxçıvan Muxtar Respublikanın 50 illik yubiley tədbirlərində iştirak etmək üçün gəlmiş möhtərəm Heydər Əliyev Naxçıvanda ali təhsilin inkişafı ilə bağlı dəyərli fikirlər söyləmişdir. Bu ideyalardan biri də Naxçıvan Universitetinin yaradılması idi. Möhtərəm Heydər Əliyevin bilavasitə göstərişi ilə 1972-ci ildə filialdan müstəqil pedaqoji instituta çevrilən ali təhsil ocağının gələcək inkişafının istiqamətləri hələ o dövrlərdə müəyyənləşdirilmişdir.

Möhtərəm prezident, bu təhsil ocağı universitet kimi fəaliyyətə başladığı 1990-cı illərin ilk günlərindən Sizin diqqət və qayğınızla əhatə olunmuş, burada dövrün yüksək tələblərinə uyğun kadr hazırlığına başlanmışdır. Siyasi fəaliyyətinizin Naxçıvan dövründə muxtar respublikanın rəhbəri kimi Siz iki dəfə Naxçıvan Dövlət Universitetində olmuş, təhsilin təşkili, kadr hazırlığı ilə əlaqədar öz tövsiyə və tapşırıqlarınızı vermisiniz.

1992-ci il noyabrın 12-də universitetin 25 illik yubileyində proqram xarakterli çıxışınız bu gün də xatirimizdədir. Həmin çıxış bu ali təhsil ocağının keçdiyi yolun əsl mahiyyətini açan və dəyərləndirən, müasir reallıqlara uyğun vəzifələri aydınlaşdıran tarixi sənəddir. Fikrimizcə, həmin çıxış eyni zamanda müstəqil Azərbaycanın ali təhsil sisteminin əsas problemlərini və inkişaf istiqamətlərini müəyyənləşdirən dövlətçilik siyasətinin daha bir ifadəsidir.

Sizin doğma Azərbaycana 30 illik rəhbərliyiniz dövründə milli kadr hazırlığı qırmızı xətlə keçir. 1970-80-ci illərdə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərinə təhsil almağa göndərilməsi təcrübəsi xüsusi yer tutmuşdur. 70-ci illərdə 10 minə qədər azərbaycanlı gənc təhsil almaq üçün respublikadan kənara göndərilmişdir. Bu, Azərbaycandan kənarda formalaşan, ətrafında böyük tələbə potensialı toplayan özünəməxsus bir universitet idi. Bu universitet yolunu keçənlər bir çox yerlərdə, o cümlədən yaxın xaric hesab edilən ölkələrdə də fəaliyyət göstərirlər. Onlar xalqımızın mənafeyini müdafiə edən, ona dayaq olan Azərbaycan diasporunun düşünən beyni, vuran qəlbidirlər.

Bu faktı xatırlatmaq ona görə xoşdur ki, möhtərəm Heydər Əliyev

Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi qısa zamanda həmin ənənənin davam etdirilməsinə nail olmuş, Naxçıvan ilə İran və Türkiyə universitetləri arasında elmi, tələbə mübadiləsi sahəsində sıx əməkdaşlığın əsasını qoymuşdur. Tikintisinə 1982-ci ildə başlanan, lakin məlum səbəblər ucbatından yarımçıq qalan tədris korpusu bu gündən möhtərəm Heydər Əliyevin himayəsi ilə özünün ikinci ömrünü yaşamağa başlayır.

Möhtərəm Heydər Əliyev Naxçıvanda yaşayıb-işlədiyi dövrdə bir neçə dəfə universitetə gələrək bu obyektlə tanış olmuş, hələ o vaxt burada tikintinin necə olursa-olsun davam etdirilməsini vacib bilmişdir. Nəhayət, xalqımız öz layiqli oğlunu siyasi hakimiyyətə ikinci dəfə dəvət edəndən sonra ölkəmizin Prezidenti Heydər Əliyevin tapşırığı və himayəsi ilə 1997-ci ildən burada tikinti işləri davam etdirildi.

Möhtərəm prezident, bütün bunlara görə muxtar respublika əhalisi və ziyalıları adından Sizə dərin minnətdarlığımızı bildirir, cansağlığı, uzun ömür, xalqımızın xoş gələcəyi naminə apardığınız yorulmaz mübarizədə yeni-yeni uğurlar arzulayırıq.



Naxçıvan Dövlət Universitetinin kollektivi ilə səmimi şöhbət



Yeni tədris korpusunun açılışı mərasimində şirinlik

## Naxçıvan Dövlət Universitetinin rektoru İsa Həbibbəylinin çıxışı

- Möhtərəm Prezidentimiz!

Hörmətli qonaqlar!

Əziz müəllimlər və tələbələr!

Azərbaycan dövlətinin ayrılmaz parçası olan qədim Naxçıvan diyarı görkəmli dövlət xadimi, qüdrətli prezidentimiz qarşısında artıq iki gündür ki, hesabat verir. Bu, ölkə prezidentinə dərin sədaqətin və tükənməz məhəbbətin hesabatıdır, bu çətin blokada şəraitində də yaşayıb-işləməyin, qurub-yaratmağın mümkünlüyünün hesabatıdır.

Möhtərəm prezidentimiz, Azərbaycan ali məktəbi özünün 30 illik inkişafı, dirçəlişi üçün Sizə borcludur. Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin formalaşması və inkişafında da Sizin müstəsna əməyiniz və daimi böyük qayğınız mühüm rol oynamışdır.

Universitetimizin kollektivi heç vaxt unutmayacaqdır ki, 1972-ci ilin iyun ayında məhz Sizin qərarınızla Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialı müstəqil pedaqoji instituta çevrilmişdir. Siz 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyi günlərində institutumuza gəldiniz və burada universitet açılmasının zəruriliyindən danışdınız. Nəhayət, institutumuzun 25 illik yubileyində iştirak etdiniz, bu ali təhsil ocağının qorunub saxlanması və inkişaf etdirilməsi barədə tövsiyələr verdiniz, həmin dövrdə bizə daim əməli kömək göstərdiniz. Elə həmin günlərdə institutumuzun binası ətrafında genişlənən ticarət obyektləri Sizin qətiyyətli tapşırığınız nəticəsində qısa müddətdə ləğv edildi.

Cənab Prezident, bu bina Azərbaycanın ali təhsilinə Sizin böyük bir töhfənizdir. Bu binanın layihəsi Sizin tapşırığınızla 1970-ci illərin sonunda hazırlanmışdır. Sizin qayğınız sayəsində bu binanın inşası 1982-ci ilin dövlət tikinti planına salınmışdı. Lakin Siz Moskvaya işləməyə gedəndən sonra bir çox işlər yarımçıq qaldığı kimi, bu binanın tikintisi də yarımçıq qalmışdı. Nəhayət, 14 ildən sonra Siz ikinci dəfə ölkəmizə rəhbərliyə başladıqdan sonra, yəni 1996-cı ilin oktyabr ayında Azərbaycan ədəbiyyatının romantik korifeyi Hüseyn Cavidin məqbərəsinin açılışı mərasimində iştirak etmək üçün Naxçıvana gələrkən bizim universitetin yeni tədris korpusunun tikintisi üçün vəsait ayrılması barədə göstəriş verdiniz. İnşa edilmiş bu bina Naxçıvan ali təhsil ocağına Sizin göstərdiyiniz qayğının və böyük təşkilatçılıq işinin çox səmərəli bəhrələrindən biridir.

Cənab Prezident, onu da demək istəyirəm ki, universitetin yeni tədris korpusunun qısa müddətdə yüksək keyfiyyətlə tikilib başa çatdırılmasında Sizin tapşırıqlarınıza və tövsiyələrinizə dərin məsuliyyətlə, fə-

dakarlıqla yanaşan, onlara ciddi surətdə əməl edən Ali Məclisin sədri Vasif Talıbovun da böyük zəhməti olmuşdur.

Möhtərəm Prezidentimiz, Naxçıvan Muxtar Respublikasının 75 illiyi günlərində bu binanın istifadəyə verilməsi bizim universitetimizə Sizin çox böyük töhfənizdir. Bu, həm də Azərbaycanın ali təhsilinə çox gözəl, qiymətli bir ərmağandır. Əziz Prezidentimiz, bütün bunlara görə biz Naxçıvan ziyalıları və ictimaiyyəti, Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin kollektivi adından Sizə ürəkdən minnətdarlığımızı bildiririk. Biz Sizə möhkəm cansağlığı, uzun ömür arzulayırıq.

Möhtərəm Prezidentimiz, Naxçıvanda universitet yaratmaq, onun üçün bina tikmək həm ali təhsilin inkişafına xidmət edir, həm də bu, Naxçıvan Muxtar Respublikasını böyük Azərbaycan üçün qoruyub saxlamağın və möhkəmləndirməyin əsas yollarından biridir. Bu böyük, əzəmətli universitet binası möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin qədim türk oğuz yurdu, Azərbaycan torpağı olan Naxçıvana vurduğu daha bir Azərbaycan möhürüdür.

Bu gün açılış mərasiminə toplaşdığımız bu bina yaxın qonşularımız, qardaşlarımız üçün sevinc, qürur, başucalığı, düşmənlərimizə isə ən kəskin gözdağıdır. Bütün bunlar isə müdrik, böyük dövlət rəhbərimiz Heydər Əliyevin siyasətinin nəticələri ilə bəhrələridir.

Əziz prezidentimiz, Naxçıvanda bu ali təhsil ocağı 1967-ci ildən fəaliyyət göstərir. Cəmi dörd il bundan əvvəl Naxçıvan Dövlət Universitetində 1700 tələbə təhsil alırdı, 16 ixtisas üzrə mütəxəssislər hazırlanırdı. Sizin böyük qayğınız sayəsində indi universitetimizin 3200 tələbəsi var, burada 34 ixtisas üzrə mütəxəssislər hazırlanır. Tibb ixtisası üzrə fakültə açılmışdır. Universitetimizdə dövlətin və bələdiyyənin idarə olunması, gömrük işinin təşkili, yol hərəkətinin təşkili, ingilis və fransız dilləri, informasiya sistemləri və müasir dövr üçün çox faydalı olan digər ixtisaslar üzrə mütəxəssislər hazırlanır.

Dünyanın bir çox ölkələrinin ali təhsil ocaqları - Amerikanın Çikaqo, Fransanın Strasburq, Türkiyənin Ankara, İstanbul, Van, Ərzurum, Qars, İran İslam Respublikasının Təbriz və Mərənd universitetləri ilə sıx əlaqələrimiz vardır. Universitetimizin 290 müəllimindən 6 nəfəri elmlər doktoru, professor, 130 nəfəri elmlər namizədidir. Burada Türkiyə Respublikasının 251 vətəndaşı da təhsil alır. Universitetimizin 100 hektarlıq ərazisində 14 tədris korpusu vardır. Sizin böyük qayğınız sayəsində son dövrdə bu ərazidə hərbi-texniki təlim mərkəzi, idman bazası, konservatoriya, informasiya mərkəzi və digər mərkəzlər yaradılmışdır.

Ali təhsil ocağımızda 1997-ci ildən etibarən Heydər Əliyev Universiteti fəaliyyət göstərir. Bu, bizim üçün əsl mənada dövlətçilik məktəbidir.

Mənсə, müstəqil Azərbaycan Respublikası Heydər Həliyev Universiteti dövrünü yaşayır. Bu universitet milli müstəqillik və möhkəm dövlətçilik məktəbi, islahatlar, tərəqqi və yüksəliş universiteti deməkdir. Ən nəhayət, bu universitet yüksəliş, XXI əsrə çağırış, irəliyə doğru inkişaf, təşəbbüskarlıq universitetidir. Əslində biz Naxçıvan Muxtar Respublikasının 75 illiyini bayram etdiyimiz bu günlərdə də Heydər Əliyev Universitetinin bir daha məşğələlərini keçiririk, dərslərini dinləyirik. Bu müdrik dərslər bizi XXI əsrə aparır.

Möhtərəm Prezidentimiz, Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin bütün kollektivi bu müzəffər yürüşdə, müstəqilliyimiz uğrunda apardığınız çətin və şərəfli yürüşdə həmişə Sizinlə olubdur, bu gün də Sizinlədir, bundan sonra da Sizinlə olacaqdır. Kollektivimiz bir daha xatırlatmaq istəyir ki, bu gün Sizin Azərbaycana ikinci dəfə prezident seçilməyinizin ildönümü tamam olur. Bu xoş gündə Siz universitetimizə belə bir gözəl ərmağan edirsiniz. Bu, Sizin prezidentlik fəaliyyətinizin rəmzi mənalarından biridir. Həm də onu deməliyəm ki, universitetimizin yeni korpusunun açılışı Sizin ikinci dəfə prezident seçilməyinizin ildönümünə gözəl bir hədiyyədir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür arzu edirəm. Sizi əmin edirəm ki, universitetimiz Azərbaycan dövlətinin daxili və xarici siyasətinin inkişaf etdirilməsi üçün apardığınız böyük işlərdə bundan sonra da daim Sizə dəstək olacaqdır.

Universitetimizin kollektivinin üzvlərindən üç nəfərə, o cümlədən mənə Sizin fərmanınızla Azərbaycan Respublikasının yüksək fəxri adları verilmişdir. Möhtərəm Prezidentimiz, kollektivimizin bütün üzvləri adından və şəxsən öz adımdan Sizə ürəkdən minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, bütün kollektivimiz, hamımız bundan sonra da Sizin yolunuzda möhkəm duracaq, elmin, təhsilin, milli mədəniyyətimizin inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik.



Yeni tədris korpusu ilə tanışlıq



Tələbə gəncliyə tövsiyələr.
İngilis dili ixtisası üzrə II kurs tələbəsi Şəhla Babayeva Azərbaycan Prezidentinin ziyarətində

# Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə Naxçıvan Dövlət Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi

Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 1999-cu il 9 oktyabr tarixli qərarı ilə Azərbaycanda milli təhsilin, elm və mədəniyyətin inkişafı sahəsindəki görkəmli xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əlirza oğlu Əliyevə fəxri doktor alimlik dərəcəsi verilir.

Azərbaycan Respublikasının Prezidenti, möhtərəm Heydər Əliyevə Naxçıvan Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim olunur.



# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

- Əziz dostlar!

Mən birinci növbədə Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Universitetinin elmi şurasına mənə göstərilən bu diqqət və qayğıya, fəaliyyətimə verilən bu yüksək qiymətə görə təşəkkür edirəm. Çox sağ olun. Sizə o da məlumdur ki, mən dünyanın bir çox ölkələrinin çox mötəbər universitetlərinin fəxri doktoru adına layiq görülmüşəm, mənə fəxri doktor diplomları verilibdir. Sizin mənə geyindirdiyiniz bu geyim kimi belə libaslar da mənə verilibdir. Ancaq mən bugünkü günü daha da qiymətləndirirəm.

Mən fəxr edirəm ki, bir çox böyük dövlətlərin zəngin tarixə malik olan universitetlərinin fəxri doktoruyam. Ancaq daha da çox fəxr edirəm ki, mən Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədələiyev adına Universitetinin doktoruyam. Sağ olun.

Mən çalışacağam ki, sizin bu etimadınızı doğruldum. Mənim üçün bu bir də ona görə əzizdir ki, mən ilk təhsilimi Naxçıvanda almışam. Əziz müəllimlərim Naxçıvanda mənə orta təhsil verib məni həyata buraxıblar. Ona görə Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin ən yüksək zirvəsidir. Mən bütün bunlara görə də fəxr edirəm. Çox sağ olun!

(Azərbaycan prezidenti Heydər Əliyevin çıxışı böyük diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı).

*Azərbaycan Respublikası Təhsil Nazirliyi*

*Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti*

# FƏXRİ DOKTOR DİPLOMU

*NDU-№1*

NAXÇIVAN - 1999

*Azərbaycan Respublikası Təhsil Nazirliyi*
**Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti Elmi Şurasının**
*9 oktyabr 1999-ci il tarixli (protokol № 2)*

***qərarı ilə***

*Azərbaycanda milli təhsilin, elm və mədəniyyətin inkişafı sahəsində görkəmli xidmətlərinə görə*

*Heydər Əlirza oğlu Əliyev*
*Cənablarına*

**FƏXRİ DOKTORLUQ**
*alimlik dərəcəsi verilir.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN REKTORU: **İSA HƏBİBBƏYLİ**
FİLOLOGİYA ELMLƏRİ DOKTORU, PROFESSOR

ELMİ KATİB: **ELBƏYİ MAQSUDOV**
PEDAQOJİ ELMLƏR NAMİZƏDİ

**Ministry of Education of the Azerbaijan Republic**
**According to the decision of the scientific council of Nakhchivan State University named after Yusif Mammadaliyev,**
dated to October 9, 1999 (protocol № 2 )

*For the incomparable services in the development of national education, science and culture, the President of the Azerbaijan Republic*

***His Excellency***
***Heydar Alirza oglu Aliyev***
*is awarded the scientific title of*

**HONORARY DOCTOR**

RECTOR OF NAKHCHIVAN STATE UNIVERSITY: PROFESSOR: **ISA HABIBBAYLI**

ACADEMIC SECRETARY: **ELBAYI MAGSUDOV**
DOCENT



Yusif Məmmədəliyev adına
Naxçıvan Dövlət Universiteti

# Gəncliyin inamı və sevinci

*Universitetin tələbələrinə, Naxçıvan Muxtar Respublikasının bütün tələbələrinə, gənclərinə cansağlığı, vətənpərvərlik, təhsil uğrunda daim mübarizə aparmaq üçün əzm arzulayıram. Naxçıvan gənclərinə hərbi vətənpərvərlik hisslərini daha da yüksəltməyi arzulayıram. Naxçıvan gənclərinə arzu və tövsiyə edirəm ki, onlar indiki nəsillər kimi, bizim kimi Naxçıvanı qorusunlar, yaratsınlar, inkişaf etdirsinlər və daha da yüksəltsinlər.*

***Heydər Əliyev***

Dövlətimizin başçısı universitetin yeni korpusunun açılışını bildirən qırmızı lenti kəsdi, auditoriyalar və laboratoriyalarla yaxından tanış oldu. Universitetin tələbələri və məktəblilər möhtərəm Prezidenti şerlə salamladılar.

Dünyaya göz açdın nəqşi-Cahanda.
Böyüdün, ucaldın ellər içində.
Səninlə fəxr edir bu Naxçıvan da.
Şan-şöhrət qazandın ellər içində.

Tanıtdın dünyaya Azərbaycanı,
El sənə yar oldu, sən elə hayan.
Ağlın heyran etdi dövrü, zamanı,
Səni alqışladı yer, göy, asiman.

* * *

Sən ucasan, zəka səndə, nur səndə,
Şimşək səndə, alov səndə, qor səndə.
Xətainin cəsarəti var səndə.
Sən qeyibdən göndərilən səsmisən,
Sən tökülən qan izini kəsmisən.

İllər boyu əsarətdə yatan el,
Sevincini, şadlığını atan el,
Dar ayaqda ətəyindən tutan el
Tanrısını tanıyırdı, duyurdu,
Sən qoymadın parçalana bu yurdu.

Zaman-zaman hay salan var, ötən var,
Tarixlərdə bilinməmiş itən var,
Taleyində bir müqəddəs vətən var.
Azərbaycan şöhrətindi, şanındı,
Azərbaycan qitələrdə tanındı.

Vətən sənlə, sən vətənlə ucaldın,
Ağır gündə el gücündən güc aldın,
Satqınlardan, xainlərdən bac aldın.
Ədaləti, haqq yolunu seçdin sən,
Sağlığında ürəklərə köçdün sən.

* * *

İstədim adına bir namə qoşum,
Dağların əlində çiçəyi gəldi.
Dedim dağ çayıtək qaynayım, coşum,
Yadıma bu yurdun küləyi gəldi.

Seçdik dar günlərdə ağı qaradan,
Rəhm etdi xalqıma Sizi yaradan.
Namərdlər çıxacaq bir-bir sıradan,
Yurduma göylərin dirəyi gəldi.

* * *

Heydər baba, yatanları oyatdın,
Xainlərin yuvasına daş atdın,
Prezidentlik kürsüsünə sən çatdın.
Gecələri sən döndərdin gündüzə,
Allah səni qoy görməsin çox bizə.

Heydər baba, sənin canın sağ olsun,
Yurdun, yuvan laləzarlıq, bağ olsun,
Hər məclisdə görüm üzün ağ olsun.
Bağçamızda gül-çiçəklər solmasın,
Sənsiz bizim bir günümüz olmasın.

* * *

İçimizdən sökülmüşdük,
Çiçək kimi biçilmişdik,
Gözümüzdə kiçilmişdik,
Bizi başa salan oldu.

Ulu öndər, ulu insan,
Uludağa çatasısan,
Sən bu xalqın atasısan,
Xalq da sənin balan oldu.

* * *





Tükənməz məhəbbət...





Dünya bü gün sənə heyran qalıbdır,
Alovlu çıxışın alqışlanıbdır.
Düşmənlər od tutub tamam yanıbdır,
Xalqımın nicatı, vuran ürəyim,
Atatürküm mənim, əziz Heydərim.

Sənintək dahini böyüdən ana,
Qəbri nurla dolsun, - deyirəm ona.
Bir xəbər yayılıb Azərbaycana, -
Cərrah bıçağına düşüb rəhbərim,
Atatürküm mənim, əziz Heydərim.

Yerdə bütün xalqın, göydə mələklər,
Şəfa diləyirdi sevən ürəklər,
Şəfa diləyirdi qaçqın, köçkünlər.
Onu bizə qaytar, ey ulu rəbbim!
Xalqın nicatıdır əziz Heydərim.

Çox şükür tanrıya, o yaradana,
Töhfələr bəxş edib bütün cahana,
Qaytardı rəhbəri Azərbaycana.
Yaşa, dahi rəhbər, vuran ürəyim,
Atatürküm mənim, əziz Heydərim!

Gəlişin bayramdır, alqışlayırlar,
Xalqın nicatını salamlayırlar,
Düşmənlər kölgəni qamçılayırlar.
Onlara göz dağı olan öndərim,
Atatürküm mənim, əziz Heydərim.

Gəlişinə min mahnı bəstələnəcək,
Laçın azad olub, Şuşa güləcək.
Uzaqda deyildir xöşbəxt gələcək.
Sənsən haqq nicatım, vuran ürəyim,
Atatürküm mənim, əziz Heydərim!

Sonra ali məktəbin bədii özfəaliyyət kollektivi maraqlı proqramla çıxış etdi.

11 oktyabr 1999-cu il



Azərbaycan ziyalıları respublika prezidenti Heydər Əliyevin Naxçıvan şəhərindəki büstünü ziyarət edərkən. 2000.

# Naxçıvanda
# "Heydər Əliyev Universiteti"

*Xalqımızın qüdrətli oğlu Heydər Əliyevin*
*keşməkeşli, mənalı və ibrətamiz həyat yolu,*
*çoxcəhətli və məqsədyönlü fəaliyyəti,*
*qətiyyətli və düşünülmüş mübarizəsi,*
*uzaqgörən və müdrik siyasəti özünəməxsus*
*qeyri-adi bir universitetdir.*

Müstəqil Azərbaycanda yeni tipli vətəndaş mütəxəssislərin hazırlanmasında, yetişib formalaşmasında Azərbaycan Respublikasının prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyevin keçdiyi böyük, çətin və şərəfli yolun dərslərinin yeri və ciddi təsiri vardır.

Naxçıvan Dövlət Universitetində "Heydər Əliyev Universiteti"nin yaradılması müstəqil dövlətçiliyin möhkəmləndirilməsi uğrunda ölkəmizdə gedən məqsədyönlü proseslərin nəticəsi kimi meydana çıxmışdır. Universitet Elmi Şurasının 6 mart 1997-ci il tarixli qərarı ilə təsis olunmuş "Heydər Əliyev Universiteti" ilkin zəruri hazırlıqdan sonra fəaliyyətə başlamışdır. Bu yeni tipli dövlətçilik məktəbinin 5 aprel 1997-ci il tarixdə keçirilən ilk məşğələsində Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov çıxış etmiş, müstəqil Azərbaycanın yeni nəsillərinin formalaşdırılması və inkişafında "Heydər Əliyev Universiteti"nin roluna və əhəmiyyətinə ciddi diqqət yetirmiş, konkret tapşırıqlar vermişdir. Naxçıvan Dövlət Universitetində ötən beş il ərzində ardıcıl olaraq fəaliyyət göstərən "Heydər Əliyev Universiteti" sözün həqiqi və geniş mənasında milli dövlətçilik, siyasi mədəniyyət və idarəetmə məktəbi olduğunu nümayiş etdirmişdir. "Heydər Əliyev Univenrsiteti"nin məşğələlərində Azərbaycanın tanınmış, görkəmli elm, təhsil adamları, o cümlədən Naxçıvan Dövlət Universitetinin alimləri ölkə rəhbərinin çoxcəhətli fəaliyyətinin ayrı-ayrı istiqamətlərinə dair mövzulara həsr olunmuş məruzələrlə çıxış edərək müasir gəncliyin maraqlarına uyğun şəkildə siyasi dünyagörüş və idarəetmə mədəniyyətinin formalaşdırılmasına müsbət təsir göstərmişlər.

"Heydər Əliyev Universiteti"ndə ilk növbədə bütün dünyada qəbul olunmuş Heydər Əliyev fenomeninin elmi şəkildə təqdimatına, şərhinə və təbliğinə diqqət yetirilir. Burada keçirilmiş məşğələlərdə hər şeydən əvvəl möhtərəm prezidentimizin dünya şöhrəti, Azərbaycan dövləti və xalqı qarşısındakı mühüm xidmətləri, qazandığı böyük ümumxalq məhəbbəti və sair məsələlər geniş şərh olunur.

Azərbaycan dövlətçiliyi məsələləri də "Heydər Əliyev Universiteti"nin məşğələlərinin geniş müzakirə obyektinə çevirir. Görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik işinin ayrı-ayrı istiqamətlərinə həsr olunmuş məruzələrdə əhatə olunan fakt və hadisələr, habelə nəzəri mülahizələr ölkə prezidentinin həmin sahədəki çoxillik və məqsədyönlü fəaliyyətinə işıq salır. Bu istiqamətdə oxunmuş mühazirələrdə xüsusən Azərbaycanda müstəqillik şəraitində hüquqi dövlət quruculuğu problemlərinə xüsusi diqqət yetirilməsi həmin məşğələlərin dinləyiciləri olan tarix, hərbi hazırlıq və hüquqşünaslıq ixtisasları üzrə təhsil alan tələbələr, gənc müəllimlər, aspirant və dissertantlar, magistrlər üçün ciddi maraq doğurur. Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı, professor Məmmədxan Rəsulovun "Heydər Əliyev və müstəqil Azər-

baycanda qanunvericiliyin formalaşdırılması" (10 iyun 1998-ci il), Naxçıvan MR Ali Məclisinin qanunvericilik şöbəsinin müdiri, hüquq elmləri namizədi Fəxrəddin Nağıyevin "Heydər Əliyev və Azərbaycan Konstitusiyası" (23 sentyabr 1999-cu il) mövzusundakı məruzələri ümumiləşmə imkanlarının genişliyinə, aktuallıq və müasirliyinə görə mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü İsa Həbibbəyli "Heydər Əliyev və dünya azərbaycanlıları problemi" (16 noyabr 2001-ci il), fəlsəfə elmləri namizədi, dosent Məmməd Rzayev "Heydər Əliyev və xarici ölkələrdə Azərbaycan diasporunun formalaşdırılması məsələləri" (30 dekabr 1999), tarix elmləri namizədi, dosent Həmzə Cəfərov "Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradıcısıdır" (23 fevral 2000-ci il), Hərbi hazırlıq kafedrasının müdiri, polkovnik İsa Qasımov "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" (21 iyun 2000) mövzuları ətrafındakı fikir və mülahizələri ilə Heydər Əliyevin müstəqil dövlətçilik kursuna dair bilik və məlumatları daha da dərinləşdirmişlər. Həmçinin Naxçıvan Dövlət Universitetinin "Azərbaycan dilçiliyi" kafedrasının müdiri, dosent Əbülfəz Quliyevin "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda etdiyi məruzədə ( 27 aprel 1999 - cu ildə ) də müstəqil dövlətin əsas atributlarından biri olan ana dilinin daha da inkişaf etdirilməsi, fəaliyyət dairəsinin genişləndirilməsi, habelə latın əlifbasına keçidin sürətləndirilməsi sahəsində dövlət rəhbərimizin otuz ildən artıq bir dövrdə apardığı mübarizə öz əksini tapmışdır.

Müstəqillik dövründə Azərbaycanda aparılan islahatların öyrənilməsi və təbliği baxımından da Heydər Əliyevin düşünülmüş və məqsədyönlü fəaliyyəti zəngin mövzu və material verir. Azərbaycan Respublikası Milli məclisinin iqtisadiyyat komissiyasının sədri, iqtisad elmləri doktoru, mərhum professor Sofiq Hüseynovun "İqtisadi islahatların memarı" (14 may 1997-ci il), texnika elmləri doktoru, professor Eldar Şahbazovun "Heydər Əliyev və Azərbaycan nefti" (28 fevral 1998-ci il), akademik Ziyad Səmədzadənin "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" (27 fevral 1999-cu il) mövzularına həsr olunmuş məruzələrində dinləyicilər ölkəmizdə müstəqillik dövrü iqtisadiyyatının yenidən qurulması, sərbəst bazar iqtisadiyyatına keçidin təşkili, "Əsrin müqaviləsi"nin meydana çıxması sahəsində Heydər Əliyevin rolu və xidmətlərinə dair geniş bilik və məlumatlar əldə etmişlər. Məşğələlərdə Naxçıvan Dövlət Universitetinin iqtisadçı müəllim və tələbələrinin, muxtar respublikada iqtisadi islahatları həyata keçirən qurumların nümayəndələrinin geniş təşkili təmin olunmuş sual-cavaba, canlı diskussiyaya, fikir mübadiləsinə lazımi şərait yaradılmışdır. Nəticədə respublikamızda iqtisadi islahatların həyata keçirilməsinə dövlət təminatı-



NDU, Heydər Əliyev Universiteti




NDU, Heydər Əliyev Universitetinin zalı

nın yaradılması, qanunvericilik bazasının formalaşdırılması, bazar iqtisadiyyatına keçidin təmin edilməsi sahəsində ölkə prezidentinin fədakar işi, yorulmaz fəaliyyəti barədə aydın təsəvvür canlandırılmışdır.

Elm və təhsilin inkişafı yollarında Heydər Əliyevin çoxillik və səmərəli xidmətləri Rusiya Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, professor Hüseyn Əhmədovun "Heydər Əliyev və xalq maarifi" (sentyabr 1997-ci il), akademik budaq Budaqovun "Heydər Əliyev və Azərbaycan təbiəti" (29 may 1998-ci il), Azərbaycan MEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi, professor Tahir Qafarovun "Azərbaycan tarixşünaslıq elminin inkişafında Heydər Əliyevin rolu" ( yanvar 1999 - cu il ), Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, tarix elmləri doktoru, professor İsmayıl Hacıyevin "Heydər Əliyev və Azərbaycan tarixi məsələləri" (26 mart 1999-cu il), akademik Bəkir Nəbiyevin "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", akademik Rasim Əfəndiyevin "Heydər Əliyev və Azərbaycan incəsənəti" (5 oktyabr 2001-ci il) mövzularındakı məruzələrində öz əksini tapmışdır. Naxçıvan Dövlət Universitetinin müxtəlif inkişaf mərhələlərindəki inkişafına Heydər Əliyevin qayğısı müstəqil bir məşğələnin mövzusuna çevrilmişdir (məruzəçi professor İsa Həbibbəyli). Dövlət başçısının ayrı-ayrı illərdə dörd dəfə (1974, 1992 (2 dəfə), 1999 ) Naxçıvan Dövlət Universitetində olması, bu ali təhsil ocağının maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni 6 mərtəbəli tədris korpusunun tikilib istifadəyə verilməsinə, əməkdaşların fəxri adlarla təltif olunmalarına göstərdiyi yüksək diqqət və qayğı böyük minnətdarlıq duyğusu ilə ayrıca qeyd edilmişdir.

Ölkə prezidentinin fəaliyyəti və tərcümeyi-halı ilə bağlı olan əlamətdar tarixi hadisələrə də "Heydər Əliyev Universiteti"nin xüsusi məşğələləri həsr olunmuşdur. Bu tipli məşğələlərdə müəllim və tələbələrin konkret fakt və hadisələr haqqında fikirlərinin, məlumatlarının dərinləşməsinə, məlum faktın mahiyyətinin açılmasına və dərinləşdirilməsinə üstünlük verilmişdir. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyində Azərbaycan prezidenti, zati-aliləri Heydər Əliyevin iştirakı və çıxışlarına həsr olunmuş məşğələ ilə (20 oktyabr 1999-cu il) Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvan diyarının taleində, ərazi bütövlüyünün qorunub saxlanmasında və dirçəlişində ölkə başçısının xidmətlərinin təhlili və təbliği ön mövqeyə çəkilmişdir. Möhtərəm prezidentimizin qardaş Türkiyə Cümhuriyyətinin Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi münasibətilə keçirilmiş məşğələdə (8 noyabr 1999-cu il) Heydər Əliyevin dünyada gedən qlobal ictimai-siyasi proseslərdəki roluna, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi sahəsindəki xidmətlərinə, Qafqazda sülhün bərqərar edilməsində böyük səylərinə xüsusi diqqət yetirilmiş və yüksək qiymətləndirilmişdir. Gənclik dövründə möhtərəm pre-

zidentimizə Azərbaycan dili və ədəbiyyatından dərs demiş, Əməkdar müəllim, filologiya elmləri namizədi lətif Hüseynzadənin Heydər Əliyevin məktəb illəri haqqındakı canlı və təsirli xatirələri dinləyicilərin prezidentimizin həyatının az öyrənilmiş məqamları ilə daha əsaslı şəkildə tanış olmalarına şərait yaratmışdır.

"Heydər Əliyev Universitetində" həmçinin ölkə başçısının həyatı və fəaliyyətinə həsr olunmuş kitabların müzakirəsinə və təqdimatına da müəyyən yer ayrılmışdır. Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi və qayğısı ilə hazırlanmış "Qayıdış" və "Ömrün üç günü" kitablarının müzakirələrində iştirak edən müəllimlər və tələbələr bu kitabların görkəmli dövlət xadiminin həyatının Naxçıvan dövrünün müxtəlif mərhələlərinin layiqli salnaməsi olduğunu qeyd etməklə bərabər, həm də müstəqillik dövrü Azərbaycan tarixinin öyrəniləsi üçün etibarlı mənbələrə çevrildiyini də bildirmişlər. Tərtibçi - müəllif Reyhan Mirzəzadənin iştirakı ilə "Azərbaycanı dünyaya saydıran insan" kitabının təqdimat mərasimi də böyük maraq doğurmuşdur.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev haqqında çap olunmuş kitab, jurnal və albomların da böyük əksəriyyəti "Heydər Əliyev Universiteti"ndə toplanmışdır. Əslində bu universitet özü üçün "Heydər Əliyev kitabxanası" yaratmağa müvəffəq olmuşdur. Həmin kitabxanadan yeni dövr Azərbaycan tarixini öyrənənlər geniş şəkildə faydalanırlar. Son illərdə Azərbaycan prezidentinin çoxcəhətli fəaliyyətinə dair çap olunmuş "Birlikdə yeni əsrə doğru", "Yurdda sulh, cahanda sülh", "Azərbaycan BMT ailəsində", "Azərbaycan - ABŞ", "Avropa Şurası və Azərbaycan", "Azərbaycan - Çin: Dostluq sərhədləri aşır", " XXI əsrə sülh körpüsü", "Sülh və təhlükəsizlik naminə" və s. kimi kitablar silsiləsi elmi işçilər, aspirantlar, dissertantlar, gənc tələbə tədqiqatçılar üçün qiymətli mənbələrdir.

"Heydər Əliyev Universiteti"ndə həmçinin ölkə prezidentinin həyatı və fəaliyyətinin bütün yönlərini əks etdirən zəngin fotomateriallar nümayiş etdirilir. Bu qiymətli materialların içərisində Heydər Əliyevin uşaqlıq və gənclik illərinə, həyatının ən müxtəlif məqamlarına dair nadir şəkillər və sənədlər də vardır. Son vaxtlarda "Heydər Əliyev Universiteti"nin xüsusi videotekası yaradılmışdır. Videotekada möhtərəm prezidentimizin həyatı və fəaliyyətinin son 33 illik dövrünü əhatə edən videolentlər toplanmışdır. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının sədri vəzifəsində çalışarkən Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində iştirak etməsini (12 noyabr 1992-ci il) və həmin tədbirdəki dərin məzmunlu çıxışını əks etdirən nadir videokaset də belə materiallardandır. Qeyd edilən videokasetlər həm də "Heydər Əliyev Universiteti"nin məşğələlərinin daha canlı və əyani vasitələrlə keçməsinə xidmət edir. Universitetin 40-cı məşğələsində magistr Elbrus İsayevin

"Heydər Əliyev Azərbaycanın Avropa Şurasının üzvlüyünə qəbul edilməsinin yaradıcısıdır" mövzusunda etdiyi məruzədən sonra mövzuya dair Strasburqda çəkilmiş videolentlər nümayiş etdirilmişdir (23 yanvar 2002-ci il).

"Heydər Əliyev Universiteti" üçün ayrılmış geniş və yaxşı tərtib olunmuş salon Naxçıvan Dövlət Universitetində dövlətçilik ideologiyasının əsas mərkəzidir. Universitetin qonaqları bir qayda olaraq "Heydər Əliyev Universiteti"ni ziyarət edir, ictimai əsaslarla işləyən bu yeni tipli təlim mərkəzinin zənginləşdirilməsinə qayğı göstərirlər. Fəxri qonaqlar - Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycan Respublikası Prezidenti Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə, Azərbaycan Respublikası baş nazirinin müavini Elçin Əfəndiyev, xarici işlər naziri Vilayət Quliyev, Fransanın ölkəmizdəki sabiq səfiri Jan Pyer Günit, respublikamızdakı Amerika səfirliyinin Elm, təhsil və mədəniyyət məsələləri üzrə müşaviri Ceyms Süart, İran İslam Respublikasının Azərbaycandakı səfiri Əhəd Qəzayi, Azərbaycan MEA-nın keçmiş prezidenti, akademik Fəraməz Maqsudov, dünya şöhrətli alim, akademik Azad Mirzəcanzadə, təhsil naziri Misir Mərdanov, Türkiyədəki Azərbaycan diasporunun rəhbəri, professor Yəhya Daşdələn, Ankara Universitetinin rektoru, professor Günal Akbay, Bakı Dövlət Universitetinin rektoru, əməkdar elm xadimi, Azərbaycan MEA-nın müxbir üzvü Abel Məhərrəmov, Azərbaycan Dövlət Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov, Qafqaz Universitetinin rektoru, pofessor-doktor Ərol Oral, Amerikadan Perdü Universitetinin professoru Harri Lepinski, akademiklər: Budaq Budaqov, Cəmil Quliyev, Teymur Bünyadov və başqaları "Heydər Əliyev Universiteti" və kitabxanasının zənginləşməsinə və inkişafınaköməklik göstərmiş, dəyərli tövsiyələr vermişlər.

Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən "Heydər Əliyev Universiteti" ötən illər ərzində əsl dövlətçilik və siyasi mədəniyyət məktəbi, müstəqillik, vətənpərvərlik və islahatçılıq məktəbi olduğunu təsdiq etmişdir. Bu universitet görkəmli dövlət xadimi, böyük siyasətçi Heydər Əliyevin simasında müstəqil Azərbaycanın yeni nəsillərinin milli dövlətçilik və müstəqillik, vətənpərvərlik ruhunda tərbiyə olunmasına, tələbə gəncliyin siyasi dünyagörüşü və mədəniyyətinin formalaşmasına geniş imkanlar açır. Bütün bunlar isə XXI əsrin müstəqil dövlətçilik təfəkkürünə yiyələnmiş vətənpərvər və hazırlıqlı vətəndaşının formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir.

"Heydər Əliyev Universiteti"miz - Azərbaycanın müstəqillik ideologiyasının və dövlətçilik strategiyasının öyrənilməsinin əsas qərargahıdır.

# Dövlətçilik işığında

*Azərbaycanın suverenliyi, bütövlüyü və bölünməzliyi, ... Azərbaycançılıq, ... milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik Kostitusiyası, ... Azərbaycanın milli bayrağı, gerbi, himni - bütün bunlar Azərbaycanın milli-ideologiyasının əsasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır.*

***Heydər Əliyev***



Naxçıvan Dövlət Universitetinin Əsas korpusu

Naxçıvan Dövlət Universiteti müstəqil Azərbaycanın sürətlə inkişaf edən, dövlətimizin böyük qayğısı ilə yenidən qurulan müasir tipli universitetidir. Bu ali təhsil ocağı çoxəsrlik milli elm və təhsil ənənələrini uğurla davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti, möhtərəm Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin nəticəsi olaraq gündən-günə inkişaf edən digər ali məktəblərlə bir sırada, vahid ailədə Naxçıvan Dövlət Universiteti də yüksəlir, tərəqqi edir və ümummilli dirçəlişə özünün töhfələrini verməkdə davam edir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbov ölkə prezidentinin müəyyən etdiyi üstün istiqamətlərə uyğun olaraq Naxçıvanda universiteti daha da inkişaf etdirmək üçün ciddi, ardıcıl və məqsədyönlü iş aparır.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin milli təhsilə böyük qayğısı sayəsində Naxçıvan Dövlət Universiteti də hazırda özünün yeni və xüsusi inkişaf dövrünü yaşayır. İndi universitetin 7 fakültəsində 31 ixtisas üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Mütəxəssis hazırlığının səviyyəsini yüksəltmək üçün maddi-texniki bazanın möhkəmləndirilməsinə ciddi fikir verilir. Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən zəngin əsaslı kitabxana, internet mərkəzi, kompüter sinifləri, tibb bazası 47 laboratoriya, 30 fənn kabineti, müasir tipli idman bazası, yaxşı təchiz olunmuş emalatxanalar, Botanika bağı yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına imkan verir.

Naxçıvan Dövlət Universitetində 32 kafedra üzrə 315 nəfər müəllim elmi-pedaqoji fəaliyyətini uğurla davam etdirir. Onlardan 6 nəfəri elmlər doktoru, professor, 130 nəfəri elmlər namizədi, dosentdir. Dövlətimizin qayğısı ilə yaradılmış "Qeyrət nəşriyyatı", Aspirantura şöbəsi, İxtisaslaşdırılmış Müdafiə Şurası, təsis edilmiş elmi jurnallar müstəqillik dövründə yeni nəsil elmi kadrların hazırlanmasına münasib şərait yaradır.

Universitetin beynəlxalq əlaqələrinin inkişafına ciddi qayğı göstərilir. Hazırda Naxçıvan Dövlət Universiteti Amerikanın Perdü, Fransanın Paris - 8 və Strasburq, İngiltərənin Preston, Almaniyanın Braunşvayq, Türkiyənin İstanbul, Ankara, Ərzurum, Qars, Van universitetləri, İran İslam Respublikasının Təbriz Universiteti, Fransanın Şərq Dilləri və Mədəniyyət İnstitutu ilə geniş əlaqələrə malikdir. Beynəlxalq əlaqələr universitetdə elmin, təhsilin və dünyagörüşün inkişafına kömək edir.

Avropa Şurası Tempus proqramının qrantı əsasında Naxçıvan Dövlət Universitetində müasir tipli, ən müasir texnologiya ilə ilə təchiz olunmuş Beynəlxalq əlaqələr ofisi qurulmuşdur.Universitetdə xarici tələbələrin işi üzrə dekanlıq və internet mərkəzi fəaliyyət göstərir.



İkinci korpus




Tibb korpusu




Universitet xəstəxanası



Tələbələr sırasında 340 nəfər Türkiyə Cümhuriyyətinin və İran İslam Respublikasının vətəndaşı vardır. Fransanın Şərq dilləri və Mədəniyyət İnstitutunun bir nəfər tələbəsi Azərbaycan dilini öyrənmək üçün universitetimizdə stajirovka keçmişdir.

Gəncliyin hərtərəfli inkişafında universitetdə həyata keçirilən incəsənət və idman tədbirləri mühüm əhəmiyyətə malikdir. Dövlətimizin dəstəyi ilə yeni açılmış İncəsənət fakültəsi və Konservatoriya, Tələbə teatr və Opera studiyaları, "Firuzə" və "Büllur" vokal qrupları, instrumental ansambl, Şən və Hazırcavablar Klubu ümumi dünyagörüşün inkişafında müstəsna rol oynayır.

Naxçıvan Dövlət Universitetinin yüksəlişinə qayğı göstərilməsi Naxçıvan Muxtar Respublikasının daha da inkişaf etdirilməsinə təkan verməyin əsas prinsiplərindən biridir.

Müstəqil Azərbaycanın yeni tarixi şəraitdəki dirçəliş və tərəqqisində də Naxçıvan Dövlət Universitetinin məzunlarının özünəməxsus payı vardır.

Naxçıvan Dövlət Universiteti qədim diyarın yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyasını formalaşdıran əsas mərkəzlərindən biri kimi də məqsədyönlü və səmərəli fəaliyyət göstərir.

Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti və çoxminli tələbə kollektivi Naxçıvanda elmin və təhsilin, müstəqillik ideologiyasının və universitet quruculuğunun inkişafı üçün Azərbaycan Respublikasının prezidenti, möhtərəm Heydər Əliyevə borclu və minnətdardır.




Tələbə yataqxanası



İnternet mərkəzində




Botanika bağı

EUROPEAN COMMISSION

Directorate General XXII - Education, Training and Youth

# Establishment of an International Relations Office at the Nakhichevan State University, Azerbaijan:

## IRO for Nakhichevan

TEMPUS Tacis application form for a Compact Project

Naxçıvan Dövlət Universitetinin Tempus proqramı üzrə layihəsi
Avropa Şurasında qəbul edilmişdir.



Yeni sabahlara doğru





Yeni salınmış Gənclik parkı



Naxçıvan Dövlət Universiteti ərazisində
uzun ömürlü nadir Narbənd ağacı

# B Ə L Ə D Ç İ


Azərbaycanda ali təhsilin inkişafında Heydər Əliyev epoxası .............. 5

Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti ................................ 10

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işləyərkən Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində nitqi ........................................................ 18

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə təbriki ........................ 25

Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun açılış mərasimi ........................................................... 27

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi ........... 28

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı ............................................................................................ 35

Naxçıvan Dövlət Universitetinin rektoru İsa Həbibbəylinin çıxışı ... 38

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə Naxçıvan Dövlət Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi ............................................................................................ 42

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi ........... 43

Gəncliyin inamı və sevinci ............................................................ 47

Naxçıvanda "Heydər Əliyev Universiteti" ........................................ 55

Dövlətçilik işığında ........................................................................ 63

Yığılmağa verilmişdir: 24.02.2002.
Çapa imzalanmışdır: 16.03.2002.
Nəşrin ölçüsü: 60×90 1/8.
Ofset kağızı №1. Fiziki çap vərəqi: 5.
Sayı: 500 ədəd.

NDU «Qeyrət» nəşriyyatı.

NURLAR
nəşriyyat - poliqrafiya

Hazır diopozitivlərdən «NURLAR» mətbəəsində çap olunmuşdur.
Bakı, H.Zərdabi pr.-78.
Tel: (994 12) 977021, 971362. Faks: (994 12) 971295.
E-mail: nurlar@azdata.net